RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 244 (8267) ŞƏNBƏ, 2 noyabr 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# İlham Əliyevdən Ermənistana daha bir zərbə

## Azərbaycan Prezidenti MDB ölkələrinin ordu generalları ilə görüşdə də işğalçı ölkənin faşizm ideologiyasını növbəti dəfə ifşa etdi

Beynəlxalq konfrans və forumların, zirvə görüşlərinin, sammitlərin keçirildiyi məkan kimi tanınan paytaxtımız Bakı şəhəri oktyabrın 30-da daha bir mühüm toplantıya - MDB ölkələrinin Müdafiə Nazirləri Şurasının 77-ci iclasına evsahibliyi etdi.

Xatırladaq ki, təhlükəsizlik sahəsində əməkdaşlığın möhkəmləndirilməsinə dair prinsipial mövqe MDB Dövlət Başçıları Şurasının oktyabrın 11-də Aşqabadda və Hökumət Başçıları Şurasının oktyabrın 25-də Moskvada keçirilən iclaslarında bir daha təsdiqlənib.

### Hərbi əməkdaşlıq konsepsiyası təsdiq edildi

Nazirlərin görüşündə MDB ölkələrinin 2025-ci ilədək hərbi əməkdaşlıq konsepsiyası təsdiq edildi. Bu konsepsiya hərbi sahədə əlaqələri yeni üst səviyyəyə çatmaq məqsədi daşımaqla bərabər, təhlükəsizliyin təmin edilməsi, müasir çağırış və təhdidlərə qarşı mübarizə sahəsində MDB dövlətlərinin milli maraqlarını, birgə prioritetlərini əks etdirir.

Bununla yanaşı, iclasda MDB üzvü olan dövlətlərin müdafiə nazirliklərinin 2025-ci ilədək radiasiya, kimyəvi və bioloji vəziyyətlə əlaqədar birgə monitorinq və qiymətləndirmə sisteminin hazırlanmasına dair əsas istiqamətləri nəzərdən keçirildi. Həmçinin "Beynəlxalq Ordu Oyunları-2019"un yekunları, MDB ölkələrinin silahlı qüvvələri üçün zabit kadrlarının hazırlanması, "Elmə başlanğıc" İnnovativ Elmi İdeyalar Beynəlxalq Festivalının keçirilməsi və İkinci Dünya müharibəsində Qələbənin 75 illiyinin qeyd edilməsinə hazırlıq məsələləri müzakirə olundu. Eyni zamanda Birlik ölkələrinin 2019-cu ildə hərbi əməkdaşlığının inkişafının nəticələrinin yekunları müzakirə edildi. İclasda MDB Müdafiə Nazirləri Şurasının 2020-ci il üçün İş Planı təsdiq edildi.

Nazirlər hərbi əməkdaşlığın inkişafına dair vəziyyəti müzakirə etdi və gələn il, həmçinin yaxın perspektivdə keçiriləcək birgə tədbirləri müəyyənləşdirdilər. Bəlli oldu ki, gələn il, həmçinin MDB ortaq hava hücumundan müdafiə qoşunlarının birgə kompüter komanda-qərargah təlimləri ("Regional təhlükəsizlik-2020") keçiriləcək.

### Azərbaycan hərbi əməkdaşlığın inkişafına davamlı töhfələr verir

Bütün zamanlarda Azərbaycanın beynəlxalq hərbi əməkdaşlığının məqsəd və tapşırıqları ölkəmizin milli maraqları, müdafiə və xarici siyasəti ilə müəyyən olunub və bu gün də yeni inkişaf mərhələsindədir.

Müxtəlif dövlətlərin maraqlarının kəsişmə məkanında, Şərqlə Qərb arasında, Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqaz kimi mürəkkəb geosiyasi regionda yerləşən və zəngin enerji ehtiyatlarına malik Azərbaycanın sülh və müharibə dövründə hərbi təhlükəsizliyinin təmin olunmasında, həmçinin xarici dövlətlərin hərbi qurumları və beynəlxalq təşkilatlarla qarşılıqlı maraqlar çərçivəsində tərəfdaşlıq münasibətlərinin qurulmasında Müdafiə Nazirliyinin beynəlxalq hərbi əməkdaşlıq fəaliyyətinin rolu xüsusi əhəmiyyətə malikdir.

Beynəlxalq hərbi əməkdaşlıq fəaliyyəti Xarici İşlər Nazirliyi və digər aidiyyəti dövlət hakimiyyəti orqanları, idarə, təşkilat və müəssisələri ilə əlaqəli şəkildə, Azərbaycanın müdafiə və xarici siyasət kursuna müvafiq olaraq həyata keçirilir.

Ardı 3-cü səh.

## S.R.Nuriyevin Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 13-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Samir Rafiq oğlu Nuriyev Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 noyabr 2019-cu il*

## S.R.Nuriyevin Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri vəzifəsindən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Samir Rafiq oğlu Nuriyev Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 noyabr 2019-cu il*

## "Uşaqların cinsi istismardan və cinsi zorakılıqdan müdafiəsi haqqında" Avropa Şurası Konvensiyasının təsdiq edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikasının Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

"Uşaqların cinsi istismardan və cinsi zorakılıqdan müdafiəsi haqqında" 2007-ci il oktyabrın 25-də Lansarotedə imzalanmış Avropa Şurasının Konvensiyası Azərbaycan Respublikasının müvafiq bəyanatı ilə təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 oktyabr 2019-cu il*

## "Uşaqların cinsi istismarı və cinsi zorakılıqdan müdafiəsi haqqında" Avropa Şurası Konvensiyasının təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 22 oktyabr tarixli 1681-VQ nömrəli Qanununun tətbiqi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Uşaqların cinsi istismarı və cinsi zorakılıqdan müdafiəsi haqqında" Avropa Şurası Konvensiyasının təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 22 oktyabr tarixli 1681-VQ nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Uşaqların cinsi istismarı və cinsi zorakılıqdan müdafiəsi haqqında" Avropa Şurası Konvensiyasının təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini beş ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını beş ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. 2007-ci il oktyabrın 25-də Lansarotedə imzalanmış "Uşaqların cinsi istismarı və cinsi zorakılıqdan müdafiəsi haqqında" Avropa Şurası Konvensiyasının 37-ci maddəsinə uyğun olaraq, Azərbaycan Respublikası tərəfindən səlahiyyətli orqan qismində Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi müəyyən edilsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi "Uşaqların cinsi istismarı və cinsi zorakılıqdan müdafiəsi haqqında" Avropa Şurası Konvensiyasının 37-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq, bu Sərəncamın 2-ci hissəsində müəyyən edilmiş səlahiyyətli orqan barədə Avropa Şurasının Baş katibinə bildiriş göndərsin.

4. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Uşaqların cinsi istismarı və cinsi zorakılıqdan müdafiəsi haqqında" Avropa Şurası Konvensiyasının təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 oktyabr 2019-cu il*

## Kadrlar dəyişsə də, tələblər dəyişmir

### Prezident İlham ƏLİYEV: "Şəffaflıq, dürüstlük hər bir dövlət məmuru üçün həyat tərzi olmalıdır"

Dövlət baçısının son günlər həyata keçirdiyi kadr islahatlarının dalğası Prezident Administrasiyası, Nazirlər Kabineti və nazirliklərdən sonra yerli icra orqanlarına çatdı.

Bu baxımdan belə genişmiqyaslı kadr dəyişiklikərinin böyük rezonansa səbəb olması, KİV-də müzakirə edilməsi təbii və başadüşüləndir.

Dövlət başçısı özü bunun səbəbini belə izah edir: "İndi Azərbaycanda gəncləşmə siyasəti aparılır. Bu, təbiidir, nəsillər dəyişir, yeni təfəkkürlü insanlar irəli çəkilir. Bu, təbii prosesdir və biz bu prosesdən kənarda qala bilmərik. Ancaq onu da bildirməliyəm ki, bu, kampaniya xarakteri almamalıdır. Çünki mənə məlumat gəlir ki, bəziləri bunu kampaniyaya çevirmək istəyirlər və sınanmış, təcrübəli, bir qədər yaşlı insanlara qarşı bu kampaniyanı təşkil etmək istəyirlər. Mən buna yol verməyəcəyəm".

Azərbaycan Prezidenti belə hesab edir ki, ölkə iqtisadiyyatının inkşafı üçün ən zəruri addımlardan biri də gənc və yaşlı nəsillərin arasında təcrübə mübadiləsinin daha geniş və dərin spektrdə aparılmasıdır: "Azərbaycanda təcrübə ilə gənclərin dinamizmi arasında vəhdət yaradılmalıdır. Bunun sintezi sayəsində biz gözəl nəticələrə çata bilərik".

Dövlət başçısı bildirir ki, müstəqillik illərində idarəetmə sistemində islahatlar zəminində qazanılan böyük təcrübə gənc nəslə mükəmməl bir tərzdə aşılanmalıdır. Nəsillər arasında elə bir körpü yaradılmalıdır ki, bütün müsbət tendensiyalar yaşlılardan gənclərə dinamik və ağrısız ötürülsün. Məhz bu baxımdan bəzi qüvvələrin kadr islahatlarını kampaniyaya çevirməklə kimlərisə sıxışdırmaq, vəzifəsindən kənarlaşdırmaq cəhdləri təhlükəlidir. Prezident bu fikrə düşən rəhbərlərə bu mesajı göndərdi: "Ona görə hər kəs bilsin ki, mən bu kampaniyaya yol verə bilmərəm".

Ardı 5-ci səh.

## Azərbaycanın hərtərəfli inkişafının təməlində ölkənin iqtisadi müstəqilliyi dayanır

Dünyanın karbohidrogenlərlə zəngin olan regionlarında yerləşən ölkələrin hamısının iqtisadiyyatının əsas hissəsini neft-qaz sektoru təşkil edir. Bu, təbiidir və heç zaman mənfi hal sayıla bilməz. Azərbaycan iqtisadiyyatında da bu sahə önəmli yer tutur. Ölkəmiz Xəzərin Azərbaycana məxsus sektorunda nəhəng yataqlar kəşf edərək onları istismara verib, qlobal neft-qaz və ixrac layihələri həyata keçirib.

"Azəri-Çıraq-Günəşli" neft və "Şahdəniz" qaz-kondensat yataqları hazırda dünyada işlənən ən böyük karbohidrogen mənbələrindəndir. Azərbaycanın mükəmməl beynəlxalq əməkdaşlıq və tərəfdaşlıq formatı yaradaraq gerçəkləşdirdiyi layihələr bütün region üçün mühüm əhəmiyyət daşıyır. Üç ölkənin ərazisindən keçən, 1768 kilometr məsafə qət edən Bakı-Tbilisi-Ceyhan (BTC) neft kəməri buna aydın misaldır. BTC-dən az sonra Bakı-Tbilisi-Ərzurum (BTƏ) kəməri "Şahdəniz" qazını Gürcüstana və Türkiyəyə çatdırıb.

Bu möhkəm bünövrə yeni layihələrə yol açıb. Azərbaycanın təşəbbüsü və liderliyi ilə həyata keçirilən "Cənub qaz dəhlizi" reallığa çevrilib. Layihənin dörd seqmentindən üçü artıq istifadəyə verilib. Dəhlizin sonuncu hissəsi olan Trans-Adriatik Qaz Boru Kəməri (TAP) gələn il Azərbaycan qazını Avropaya çatdıracaq.

Ardı 5-ci səh.



## BAKI: təkrarsız tarixi sima, müasir memarlıq incisi

### UNESKO-nun "Yaradıcı şəhərlər şəbəkəsi" siyahısına daxil olan paytaxtımız həm də tolerantlıq və multikulturalizm mərkəzidir

Zəngin və qədim mədəniyyətə, eləcə də tolerantlıq ənənələrinə söykənən müstəqil Azərbaycan dövləti inkişaf sürətinə görə yalnız Avropa məkanında deyil, dünya ölkələri içərisində də ön sıralardadır. Azərbaycan Prezidenti İlham Əliyevin son 15 il ərzində həyata keçirdiyi məqsədyönlü siyasət milli inkişaf hədəflərinə hesablanmaqla doğru istiqamətdə olduğunu dəfələrlə təsdiqləyib.

Məhz həmin siyasətin nəticəsidir ki, respublikanın paytaxtı son illər bir sıra beynəlxalq konfrans və festivallara evsahibliyi etməkdədir. Müxtəlif sahələri əhatə edən belə tədbirlər, təbii ki, keçirildiyi məkan barədə də iştirakçılarda zəngin təəssürat yaradır. Bu mənada silsilə xarakterli beynəlxalq tədbirlər ölkəmizin nəinki yerləşdiyi Cənubi Qafqazda, Avropa məkanında, hətta dünya arenasında belə geniş təbliğində mühüm amillərdən sayılır.

Ardı 3-cü səh.

# “Bakı Dövlət Universitetinin 100 illiyi (1919-2019)” Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 9-cu bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992, № 23, maddə 996; 1993, № 23-24, maddə 676; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 5, maddə 251; 2003, № 12 (I kitab), maddə 677; 2005, № 4, maddə 291; 2006, № 10, maddə 846; 2007, № 3, maddə 213; 2008, № 6, maddələr 452, 472; 2009, № 1, maddə 4, № 5, maddə 312, № 7, maddələr 514, 515, № 12, maddə 974; 2010, № 3, maddə 174, № 11, maddə 960; 2011, № 11, maddə 992; 2012, № 7, maddə 664, № 11, maddələr 1036, 1048, 1061; 2013, № 5, maddələr 460, 478, № 10, maddə 1143, № 12, maddə 1477; 2014, № 6, maddələr 612, 623; 2015, № 12, maddə 1447; 2016, № 12, maddələr 1979, 2040; 2017, № 1, maddələr 16, 27, № 7, maddə 1311, № 10, maddə 1771, № 11, maddə 1962, № 12 (I kitab), maddələr 2242, 2269; 2018, № 2, maddə 168, № 3, maddə 387, № 5, maddələr 841, 859, 874, № 6, maddə 1190, № 11, maddə 2207, № 12 (I kitab), maddələr 2465, 2516; 2019, № 3, maddə 369, № 5, maddə 790) 2-ci maddəsində “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin 160 illiyi (1858-2018)” yubiley medalı.” hissəsindən sonra nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda yeni hissə əlavə edilsin:

“Bakı Dövlət Universitetinin 100 illiyi (1919-2019)” yubiley medalı.”.

**Maddə 2.** “Bakı Dövlət Universitetinin 100 illiyi (1919-2019)” Azərbaycan Respublikasının yubiley medalı haqqında Əsasnamə” təsdiq edilsin (əlavə olunur).

**Maddə 3.** “Bakı Dövlət Universitetinin 100 illiyi (1919-2019)” Azərbaycan Respublikasının yubiley medalının təsviri” təsdiq edilsin (əlavə olunur).

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 oktyabr 2019-cu il*

# “Bakı Dövlət Universitetinin 100 illiyi (1919-2019)” Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 22 oktyabr tarixli 1687-VQD nömrəli Qanununun tətbiqi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Bakı Dövlət Universitetinin 100 illiyi (1919-2019)” Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 22 oktyabr tarixli 1687-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. “Bakı Dövlət Universitetinin 100 illiyi (1919-2019)” Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 22 oktyabr tarixli 1687-VQD nömrəli Qanunu ilə təsdiq edilmiş “Bakı Dövlət Universitetinin 100 illiyi (1919-2019)” Azərbaycan Respublikasının yubiley medalı haqqında Əsasnamə”nin 1-ci maddəsində hər iki halda nəzərdə tutulan müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunla təsdiq edilmiş “Bakı Dövlət Universitetinin 100 illiyi (1919-2019)” Azərbaycan Respublikasının yubiley medalının təsviri”nin 3.1-ci maddəsində nəzərdə tutulan müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.3. həmin Qanunla təsdiq edilmiş “Bakı Dövlət Universitetinin 100 illiyi (1919-2019)” Azərbaycan Respublikasının yubiley medalı haqqında Əsasnamə”nin 1-ci maddəsində hər iki halda “orqan (qurum)” dedikdə və həmin Qanunla təsdiq edilmiş “Bakı Dövlət Universitetinin 100 illiyi (1919-2019)” Azərbaycan Respublikasının yubiley medalının təsviri”nin 3.1-ci maddəsində “orqan (qurum)” dedikdə Bakı Dövlət Universiteti nəzərdə tutulur.

2. “Bakı Dövlət Universitetinin 100 illiyi (1919-2019)” Azərbaycan Respublikasının yubiley medalı ilə təltif etmək səlahiyyəti Azərbaycan Respublikasının Təhsil nazirinə verilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti “Bakı Dövlət Universitetinin 100 illiyi (1919-2019)” Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 22 oktyabr tarixli 1687-VQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 noyabr 2019-cu il*

***Azərbaycan Respublikasının 2019-cu il 22 oktyabr tarixli Qanunu ilə təsdiq edilmişdir***

# “Bakı Dövlət Universitetinin 100 illiyi (1919-2019)” Azərbaycan Respublikasının yubiley medalının təsviri

**Maddə 1. Medalın ümumi təsviri**

“Bakı Dövlət Universitetinin 100 illiyi (1919-2019)” Azərbaycan Respublikasının yubiley medalı (bundan sonra - medal) bürüncdən tökülmüş və qızıl suyuna çəkilmiş, diametri 36 mm olan dairəvi lövhədən ibarətdir.




**Maddə 2. Medalın ön tərəfi**

2.1. Medalın ön tərəfi iki çevrə ilə konturlanmışdır.

2.2. Xarici və daxili çevrələrin arasında yuxarı qövs boyunca “BAKI DÖVLƏT UNİVERSİTETİ” sözləri, aşağı qövs boyunca “1919-2019” sözləri yazılmışdır. Yazıların arasında, sol və sağ tərəflərdə səkkizguşəli ulduz vardır. “1919-2019” sözlərindən sol və sağ tərəflərə doğru qövs boyu sünbüllərdən ibarət çələng yerləşir.

2.3. Medalın daxili çevrəsinin mərkəzində təhsili simvolizə edən relyefli kitab emblemindən və elmi simvolizə edən relyefli atom təsvirindən ibarət kompozisiya vardır. Həmin kompozisiyanın yuxarı hissəsinə loqotip şəklində relyefli “BDU” sözü, aşağı hissəsinə “100” rəqəmləri həkk edilmişdir.

2.4. Səkkizguşəli ulduz, çevrənin konturları, atom təsviri və kitab emblemi, sözlər və rəqəmlər, “BDU” loqotipi və sünbül çələngləri relyefli olaraq qızılı rəngdədir. İki çevrə arası tünd göy rəngdə, ikinci çevrə daxilində arxa fon qızılı rəngdədir.

**Maddə 3. Medalın arxa tərəfi**

3.1. Medalın arxa tərəfinin yuxarı hissəsində “BDU-100” sözləri, mərkəzində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) əsas binasının eskizi relyefli həkk olunur.

3.2. Medalın arxa tərəfində medalın seriyası və nömrəsi həkk edilir.

**Maddə 4. Medalın elementləri**

4.1. Medal paltara bərkidilmək üçün elementi olan, 50 mm x 40 mm ölçüdə beşbucaqlı xara lentə iki halqa və ilgək vasitəsilə birləşdirilir.

4.2. Xara lentin üzərində hər iki kənarından mərkəzə doğru ardıcıl olaraq 1,68 mm enində tünd göy, 1,83 mm enində ağ, 15 mm enində tünd göy, 1,83 mm enində ağ, 5,27 mm enində qızılı və mərkəzdə eni 4,55 mm olan göy rəngli şaquli zolaqlar vardır.

4.3. Xara lentin yuxarı hissəsinə mərkəzində relyefli kitab emblemindən və atom təsvirindən ibarət kompozisiya, sol və sağ tərəflərə doğru sünbüllərdən ibarət çələng təsvir edilmiş, qızıl suyuna çəkilmiş 37 mm x 5,5 mm ölçüdə bürünc lövhə bərkidilir.

4.4. Medala paltarın yaxasına bərkidilmək üçün elementi olan, eyni xara lentdən üz çəkilmiş 37 mm x 10 mm ölçülü qəlib əlavə edilir.

***Azərbaycan Respublikasının 2019-cu il 22 oktyabr tarixli Qanunu ilə təsdiq edilmişdir***

# “Bakı Dövlət Universitetinin 100 illiyi (1919-2019)” Azərbaycan Respublikasının yubiley medalı haqqında ƏSASNAMƏ

**Maddə 1. Təltif edilən şəxslər**

“Bakı Dövlət Universitetinin 100 illiyi (1919-2019)” Azərbaycan Respublikasının yubiley medalı ilə elm və təhsil sahələrində yüksək nailiyyətlər əldə etmiş, bu sahələrin inkişafına xüsusi töhfə vermiş, sosial-mədəni inkişafda fəal iştirak etmiş müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) əməkdaşları, veteranları, məzunları, həmçinin elm, təhsil və beynəlxalq əməkdaşlıq sahəsində dövlət siyasətinin həyata keçirilməsində və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) tərəqqisində xüsusi xidmətləri olan Azərbaycan Respublikasının vətəndaşları, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər təltif edilirlər.

**Maddə 2. Təltif edən orqan**

“Bakı Dövlət Universitetinin 100 illiyi (1919-2019)” Azərbaycan Respublikasının yubiley medalı ilə bu Əsasnamənin 1-ci maddəsində göstərilən şəxslər Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndinə uyğun olaraq təltif edilirlər.

**Maddə 3. Taxılma qaydası**

“Bakı Dövlət Universitetinin 100 illiyi (1919-2019)” Azərbaycan Respublikasının yubiley medalı döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər orden və medalları olduqda onlardan sonra taxılır.

# Kənd Təsərrüfatı İşçiləri Gününə həsr olunmuş təntənəli yığıncaq keçirilib

## İnam KƏRİMOV: “Kənd təsərrüfatının strateji əhəmiyyətli və iqtisadi cəhətdən səmərəli istehsal sahələrinin inkişaf etdirilməsi prioritet vəzifələrdən biri kimi müəyyən olunub”

Kənd Təsərrüfatı Nazirliyində 1 Noyabr - Kənd Təsərrüfatı İşçiləri Gününə həsr olunmuş təntənəli yığıncaq keçirilib.

AZƏRTAC xəbər verir ki, yığıncaqda çıxış edən Kənd Təsərrüfatı naziri İnam Kərimov bu əlamətdar gün münasibətilə tədbir iştirakçılarını təbrik edib. Nazir bildirib ki, Azərbaycan böyük əkinçilik ənənələrinə malik ölkələrdən biridir: “Ümummilli Lider Heydər Əliyevin siyasi iradəsi və gərgin əməyi ilə həm keçmiş Sovetlər dönəmində, həm də müstəqil Azərbaycana rəhbərlik etdiyi dövrdə bütün sahələrdə olduğu kimi, aqrar sektorda da ciddi islahatlar aparılıb, resurslardan səmərəli və məqsədyönlü istifadə təmin olunub, sahənin dayanıqlı inkişafı üçün möhkəm baza yaradılıb. Əsası Ümummilli Lider tərəfindən qoyulmuş və hazırda davam etdirilən uğurlu aqrar siyasət nəticəsində ölkə iqtisadiyyatında kənd təsərrüfatı xüsusi yerə sahib olub”.

Kənd Təsərrüfatı nazirinin sözlərinə görə, hazırda ölkəmizdə iqtisadiyyatın digər sahələri kimi, aqrar sektor da keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoyub: “Aqrar sahə qeyri-neft sektorunun ən aparıcı sahəsi elan edilib. Kənd təsərrüfatının strateji əhəmiyyətli və iqtisadi cəhətdən səmərəli istehsal sahələrinin inkişaf etdirilməsi prioritet vəzifələrdən biri kimi müəyyən edilib. Həyata keçirilən aqrar islahatlar kənd təsərrüfatının daha da inkişafını nəzərdə tutur və bu məqsədlə dövlət tərəfindən çox böyük dəstək tədbirləri həyata keçirilir. 2020-ci ildən aqrar subsidiyalar yeni mexanizm əsasında veriləcək. Yeni subsidiya siyasəti kənd təsərrüfatına dövlət dəstəyi siyasətinin artırılmasını, ixrac potensialı olan kənd təsərrüfatı məhsullarının istehsalının stimullaşdırılmasını nəzərdə tutur. Fermerlərin texnika, gübrə və damazlıq heyvanla təminatı ilə bağlı dövlət tərəfindən güzəştlər tətbiq edilir. Qəbul olunan qərarlar, imzalanmış fərman və sərəncamlar ölkə iqtisadiyyatının, o cümlədən aqrar sektorun davamlı inkişafına real zəmin yaradır. Məhz həyata keçirilən tədbirlər nəticəsində təkcə bu ilin 9 ayı ərzində kənd təsərrüfatının ümumi məhsulunun dəyəri əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 7,1 faiz artıb. Aqrar sahədə inkişaf ölkədə kənd təsərrüfatı məhsullarının ixracına da əhəmiyyətli təsir göstərib. Aqrar sahənin ixrac potensialı yüksəlib, kənd təsərrüfatı məhsullarının ölkənin valyuta gəlirlərinin formalaşmasında rolu artıb. Bu nəticələrə dövlətin yürütdüyü uğurlu aqrar siyasət və fermerlərə göstərilən xüsusi diqqət sayəsində nail olmuşuq”.



Nazir aqrar sahədə əldə edilən uğurlar və yüksək nəticələrin Prezident İlham Əliyev tərəfindən çox yüksək qiymətləndirildiyini deyib. Ötən gün dövlət başçısının kənd təsərrüfatı sektorunda çalışan 32 nəfəri fəxri ad, orden və medallarla təltif etdiyini xatırladan İnam Kərimov göstərdiyi yüksək diqqət və qayğıya görə aqrar sektorda çalışan insanlar adından Prezident İlham Əliyevə minnətdarlığını bildirib.

Tədbirdə çıxış edən Azərbaycan Respublikası Prezidentinin aqrar məsələlər üzrə köməkçisi Azər Əmiraslanov yığıncaq iştirakçılarına dövlət başçısının salam və təbriklərini çatdırıb. O bildirib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2008-ci ildə imzaladığı fərmana əsasən hər il 1 Noyabr tarixinin Azərbaycanda Kənd Təsərrüfatı İşçiləri Günü kimi qeyd olunması dövlətin fermerlərə göstərdiyi diqqətin təzahürüdür: “Prezident İlham Əliyev tərəfindən 2007-ci ildən kənd təsərrüfatına dövlət dəstəyi proqramına start verilməsi və bütövlükdə fermerlər və kəndlilərə hərtərəfli diqqət və qayğının göstərilməsi dövlətin kənd təsərrüfatına, kəndə və kəndliyə münasibətini göstərir. Kənd Təsərrüfatı Nazirliyinin əməkdaşları bu dövr ərzində səmərəli fəaliyyət göstərib, ciddi nəticələr əldə ediblər. Bu mövsümdə istər taxıl yığımı, istərsə də pambıq yığımında əldə edilən nəticələr uğurlu fəaliyyətin göstəriciləridir. Kənd Təsərrüfatı Nazirliyi çox ciddi uğurlara imza atıb. Bu, dövlət rəhbərliyi tərəfindən yüksək qiymətləndirilir. Bir qayda olaraq Kənd Təsərrüfatı Nazirliyinin bütün təşəbbüsləri hər zaman dəstəklənib. Bu təşəbbüslər nazirliyin potensialının gücləndirilməsinə xidmət edir. Bu illər ərzində, ən əsası, Kənd Təsərrüfatı Nazirliyinin institusional potensialının gücləndirilməsi istiqamətində işlər görülüb və fəaliyyət üçün konkret prinsiplər müəyyənləşdirilib. Hesab edirik ki, 3 əsas prinsip - kəndli və fermerlərə yaxınlıq, səmərəli və şəffaf idarəçilik və innovasiyaların tətbiqi prinsiplərinin əsasında göstərilən fəaliyyət nəticəsində qarşıdakı dövr ərzində daha ciddi nəticələr əldə olunacaq”.

Daha sonra Azər Əmiraslanov Prezident İlham Əliyevin kənd təsərrüfatı sektorunda çalışan bir qrup şəxsin fəxri ad, orden və medallarla təltif olunmasına dair imzaladığı sərəncamı oxuyub, təltif olunan şəxsləri təbrik edib.

Milli Məclisin Aqrar siyasət komitəsinin sədri, Milli Məclisin deputatı Eldar İbrahimov isə çıxışında bildirib ki, son illər ərzində kənd təsərrüfatı sahəsi dinamik inkişaf edib: “Kənd təsərrüfatı sahəsi artıq elmi cəhətdən idarə olunur. 2019-cu ilin 9 ayı ərzində kənd təsərrüfatının ümumi məhsulunun dəyəri 6,27 milyard manat təşkil edib ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 7,1 faiz çoxdur. Aqrar sahədə inkişaf ölkədə kənd təsərrüfatı məhsullarının ixracına da əhəmiyyətli təsir göstərib, aqrar sahənin ixrac potensialı yüksəlib”.

Aqrar sahənin qanunvericilik bazasının daha da təkmilləşdirildiyini deyən E.İbrahimov Milli Məclisin adından kənd təsərrüfatı işçilərini peşə bayramı münasibətilə təbrik edib.

Prezidentin imzaladığı sərəncamla təltif olunan Rəcəb Orucov, Elman Qasımov və Maarif Hüseynov verdiyi dəyərə görə dövlət başçısına minnətdarlıqlarını bildiriblər.

Tədbirin sonunda Kənd Təsərrüfatı İşçiləri Gününə həsr olunmuş təntənəli yığıncağın iştirakçılarının Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə müraciəti qəbul olunub. Müraciətdə bildirilir ki, Prezidentin imzaladığı son fərman və sərəncamlar, eyni zamanda, aqrar sahəyə göstərdiyi daimi diqqət və qayğı nəticəsində kənd təsərrüfatının bütün sahələri dinamik inkişaf edib, köklü dəyişikliklər baş verib və zəruri potensialın formalaşdırılması üçün məqsədyönlü tədbirlərin icrası uğurla davam etdirilir. İştirakçılar göstərdiyi diqqət və qayğıya görə aqrar sahənin işçiləri, fermer və sahibkarlar adından dövlət başçısına dərin minnətdarlıqlarını ifadə ediblər.

# Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının məsul işçilərinin 2019-cu ilin noyabr ayında respublikanın bir sıra şəhər və rayonlarında vətəndaşların qəbulu cədvəli

**14 noyabr 2019-cu il**

1. Lerik rayonu
2. Bərdə rayonu
3. Kəlbəcər rayonu
4. Qobustan rayonu
5. Samux rayonu

**28 noyabr 2019-cu il**

1. Şirvan şəhəri
2. Qusar rayonu
3. Zaqatala rayonu
4. Goranboy rayonu
5. Saatlı rayonu

***Qeyd:*** Qəbullar şəhər və rayonlarda saat 10:00-da başlayır.

# Müharibə əlillərinə 50 avtomobil təqdim edilib

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi daha 50 avtomobili müharibə əlillərinə təqdim edib.

AZƏRTAC xəbər verir ki, avtomobillə təmin edilən vətəndaşlar sosial cəhətdən həssas qruplara göstərilən yüksək qayğıya, şəhid ailələrinin, müharibə əlillərinin sosial təminatlarının gücləndirilməsi üçün həyata keçirilən ardıcıl tədbirlərə görə Prezident İlham Əliyevə dərin minnətdarlıqlarını bildiriblər.

Tədbirdə Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini Mətin Kərimli avtomobillərin təqdim olunması mərasimində deyib ki, əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində atılan ardıcıl addımlar dövlət başçısının siyasətinin mərkəzində vətəndaş amilinin dayandığını bir daha təsdiq edir.

2019-cu il ərzində təqdim edilən iki sosial paket nəticəsində ölkəmizdə minimum əməkhaqqı 2 dəfəyə yaxın, minimum pensiya 72,4 faiz, sosial müavinət və təqaüdlər orta hesabla 100 faiz artırılıb. Bu və digər sosial tədbirlər ölkədə sosial inkişafda ciddi irəliləyişləri təmin etməklə bu il 4,2 milyon vətəndaşın rifah halının yaxşılaşdırılmasına mühüm dəstək olub. Nazir müavini, eyni zamanda, müharibə əlillərinin, şəhid ailələrinin mənzillə, həmçinin müharibə əlillərinin avtomobillə təminatı işlərinin ildən-ilə gücləndirildiyini bildirib. M.Kərimli qeyd edib ki, ölkəmizin ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi uğrunda döyüşlərdə şəhid olanların ailələrinə və həmin döyüşlərdə sağlamlığını itirərək əlilliyi olan şəxslərə 2018-ci ildə nəzərdə tutulduğundan 3 dəfə çox olmaqla 626 mənzil təqdim edilib. 2019-cu ildə azı 800 mənzil verilməsi nəzərdə tutulub, onlardan 174-ü artıq verilib. İndiyədək isə şəhid ailələrinə və müharibə əlillərinə 6828 mənzil təqdim edilib.

M.Kərimli avtomobillə təminat tədbirlərinin də ildən-ilə gücləndirildiyini deyib. Bildirib ki, bu il nəzərdə tutulduğundan 3,2 dəfə çox olmaqla 600-ə yaxın avtomobilin müharibə əlillərinə verilməsi nəzərdə tutulub. Onlardan yeni verilən 50 avtomobil də daxil olmaqla cari ildə artıq 427 avtomobil təqdim edilib. Bununla indiyədək həmin vətəndaşlara 6400-dək minik avtomobili verilib.

Tədbirdə ictimai birliklərin rəhbərləri Azərbaycanda sosial inkişaf proseslərinin, vətəndaş rifahının təminatı, həssas kateqoriyalardan olan vətəndaşlara qayğının artırılması istiqamətində aparılan işlərin ictimaiyyət tərəfindən rəğbətlə qarşılandığını qeyd ediblər.

# Moskvada "Nəsimi poeziyası - insana himn: Şərqin və Qərbin mənəvi-mədəni dəyərlərinin sintezi" mövzusunda konfrans keçirilib






Dahi Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin 650 illik yubileyi çərçivəsində Rusiya Elmlər Akademiyasının Fəlsəfə İnstitutunda "Nəsimi poeziyası - insana himn: Şərqin və Qərbin mənəvi-mədəni dəyərlərinin sintezi" mövzusunda beynəlxalq elmi konfrans keçirilib.

Konfransın açılışında Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva iştirak edib.

Heydər Əliyev Fondunun, Rusiya Fəlsəfə Cəmiyyətinin və Azərbaycanın Rusiyadakı səfirliyinin təşkilatçılığı ilə keçirilən konfransda "Müasir fəlsəfə, Nəsiminin mədəni-tarixi metodologiyaları və mənəvi irsi", "Nəsimi ideyaları və hürufilik: anlayış məsələləri və müasir interpretasiya", "Nəsimi yaradıcılığında humanizm problemi", "Nəsimi poeziyasında insan və mədəni dəyərlərin təsdiqi", "Nəsimi estetikasında mənəvi kamillik" və digər mövzularda məruzələr dinlənilib.

Konfransın açılışında Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva, Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu, Rusiya Fəlsəfə İnstitutunun direktoru Andrey Smirnov, Rusiya Elmlər Akademiyasının Fəlsəfə İnstitutunun elmi rəhbəri Abdulsalam Hüseynov, Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə İnstitutunun direktoru İlham Məmmədzadə və başqaları çıxış ediblər.

Konfransın işində müxtəlif ölkələrdən, o cümlədən Rusiya, Azərbaycan, ABŞ, İran, Türkiyə, Finlandiya, Özbəkistan alimləri iştirak ediblər.

Rusiya Elmlər Akademiyası Fəlsəfə İnstitutunun elmi rəhbəri, akademik Abdulsalam Hüseynov AZƏRTAC-ın müxbiri ilə söhbətində bildirib ki, Nəsimi dahi şair, humanizmin bünövrəsini qoyanlardan biridir. O deyib: "Nəsiminin "Sığmazam" qəzəli insan himnidir. XIV əsrdə insanı belə qüvvə, dərinlik və ardıcıllıqla vəsf etmək böyük cəsarət tələb edirdi. Bu gün Nəsimi ideyaları olduqca aktualdır".

# BAKI: təkrarsız tarixi sima, müasir memarlıq incisi



Əvvəli 1-ci səh.

...Bir vaxtlar "Bakının dərdi var, Bakı xəstədir" yazan ölməz Xalq şairi Səməd Vurğun başqa bir şeirində isə "Bir dön bizim Bakıya bax..." deyirdi. Bakının hüsnü hər zaman gözəl olub. Bu gün isə Bakı özgə libasdadır: müasirliyi ilə, hətta Avropanı heyran edən, bir çox ölkələrin paytaxtını geridə qoyan şəhərimiz həm də əcnəbilərin əsl istirahət yerinə çevrilib. Nəinki qızmar yay günlərində, ilin bütün fəsillərində gəzməli, görməli... məkanları əcnəbi turistlərlə dolu olur. Əlbəttə, Bakı tarixən dünya səyahətinə çıxanların diqqətində olub və bu, onların xatirələrində yaşayıb.

Son illər paytaxtın beynəlxalq mədəni-kütləvi tədbirlərə, eləcə də idman yarışlarına evsahibliyi etməsi, bütün sahələrdə sürətli inkişafı, əmin-amanlığı, tarixən qorunub saxlanan tolerantlıq mühiti və multikultural ənənələrinə sadiqliyi ona marağı daha da artırıb.

Paytaxtlar içərisində bir sıra xüsusi keyfiyyətlərinə, əsasən tarixi siması qorunub saxlanmaqla müasirliyinə görə beynəlxalq birliyin daha çox diqqət ayırdığı Bakının 31 oktyabr 2019-cu il tarixində UNESKO-nun "Yaradıcı şəhərlər şəbəkəsi" siyahısına daxil edilməsi də əlamətdar mədəni hadisə kimi yaddaşlara yazılacaq.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva paytaxt Bakının 31 oktyabr - "Dünya Şəhərlər Günü"ndə "dizayn" tematikası üzrə UNESKO-nun "Yaradıcı şəhərlər şəbəkəsi" siyahısına daxil edilməsilə əlaqədar rəsmi "Instagram" səhifəsində bu sevinci doğma xalqı ilə paylaşıb. Paylaşmada deyilir: "Təkrarsız tarixi siması qorunaraq müasir memarlıq inciləri ilə daim gözəlləşən Bakı şəhəri 31 oktyabr -"Dünya Şəhərlər Günü"ndə "dizayn" tematikası üzrə UNESKO-nun "Yaradıcı şəhərlər şəbəkəsi" siyahısına daxil edilib. Paytaxtımızın tarixi üçün əlamətdar olan bu hadisə münasibətilə həmvətənlərimi təbrik edirəm, ölkəmizin bütün şəhərlərinə sülh, inkişaf, tərəqqi, mehriban, qonaqpərvər sakinlərinə isə xoşbəxtlik və firavanlıq arzulayıram!"

Bakının UNESKO-nun "Yaradıcı şəhərlər şəbəkəsi"nə qoşulması ölkəmizin dünyada artan nüfuzunun göstəricilərindən biridir. Bununla əlaqədar olaraq keçirilən mətbuat konfransında Mədəniyyət Nazirliyinin Aparat rəhbərinin müavini Vasif Eyvazzadə bildirib ki, Bakı ilə bağlı qəbul edilən bu qərar ölkəmiz üçün olduqca əlamətdar və tarixi-mədəni hadisədir. Çünki bu şəbəkəyə hazırda dünya üzrə cəmi 246 şəhər daxil edilib. Şəhərlər bu siyahıya incəsənət və sənətkarlıq, xalq sənəti, dizayn, kinematoqrafiya, astronomiya, ədəbiyyat, media və musiqi kateqoriyaları üzrə salınır. Bakı şəhəri isə "dizayn" kateqoriyası üzrə siyahıya salınıb. Şəhərlərin bu siyahıya salınmasında "3T" prinsipi əsas götürülür - talant, texnologiya və tolerantlıq: "Bir məqamı da vurğulayaq ki, Bakının yaradıcı şəhərlər şəbəkəsi" üzrə siyahıya alınması yalnız bu faktorlarla bağlı deyil. Son zamanlar Bakıda keçirilən çoxsaylı tədbirlər, paytaxtın qədimliyi ilə müasirliyi arasındakı harmonik bir körpünün formalaşdırılması, həmçinin ölkə rəhbərliyinin bu prosesə dəstək göstərməsi, xüsusilə də Azərbaycanın Birinci vitse-prezidenti, UNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın Azərbaycan-UNESKO əlaqələrinə verdiyi töhfələrin burada hadisələrin reallaşdırılmasında başlıca rol oynadığını görürük".

Bakıya belə bir dəyərin verilməsi, eyni zamanda regionlarımızın da yaradıcı mərkəzə çevrilməsinə imkan verəcək. Bakının yaradıcı şəhər elan edilməsi bizə həm də imkan verəcək ki, paytaxtın təcrübəsində digər regionlarımız da yaradıcı mərkəzə çevrilsinlər. Onlar da təbii ki, imkan yaradacaq ki, yaradıcılıqla məşğul olan sənətkarlar, şirkətlər, özəl və dövlət qurumları arasında əməkdaşlığın gücləndirilməsi, həmçinin bu sahədə innovativ layihələrin həyata keçirilməsi sürətlənsin. Bakının qazandığı yeni ad, həmçinin dizayn sənayesinin də dinamik inkişafına öz müsbət təsirini göstərəcək.

Ölkəmizin inkişafının yeni mərhələsi Ulu Öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı Azərbaycan Prezidenti İlham Əliyevin adı ilə sıx bağlıdır. Son illər ölkəmizin, o cümlədən onun paytaxtının hərtərəfli inkişafı dünya çapında diqqət mərkəzinə çəkilir. Əlbəttə, bu səbəb və amilləri sadalamağa ehtiyac yoxdur. Lakin ölkəmizdə keçirilən bir sıra beynəlxalq tədbirlərin iştirakçılarının, eləcə də həmin müddətdə burada olan turistlərin etiraflarında inkişafın səbəbi kimi məhz əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş siyasi kursun layiqincə davam etdirilməsi və bir sıra mühüm beynəlxalq layihələrin gerçəkləşdirilməsində Heydər Əliyev Fondunun fəaliyyəti ilə birbaşa bağlılığı göstərilir.

Bakının hərtərəfli inkişaf etdirilməsi ilk növbədə yaradılan sosial mühitdən də asılıdır. Burada hökm sürən əmin-amanlıq, dinclik, müxtəlif xalqların nümayəndələrinin tolerantlıq mühitində dinc, yanaşı yaşamasına şərait paytaxtın inkişafını şərtləndirən amillər sırasındadır.

Azərbaycanın mədəni zənginliyinin dünyada daha geniş şəkildə tanıdılması, bu tarixi mirasın qorunaraq gələcək nəsillərə çatdırılması da dövlət başçısının daim diqqət mərkəzindədir. Azərbaycan Prezidentinin sərəncamı ilə təsdiq olunan "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında bu sahəyə xüsusi yer ayrılır.

Hərtərəfli və dayanıqlı iqtisadi inkişaf, sosial cəlbedicilik, məşğulluq və yoxsulluğun azaldılması, təbii ehtiyatlardan səmərəli istifadə, ətraf mühitin mühafizəsi və iqlim dəyişikliyi, mədəni dəyərlər, müxtəliflik və irs, qarşılıqlı anlaşma, sülh və təhlükəsizliyin təmini mühüm məsələlərdəndir. Bunlardan başqa, son illər ölkəmizdə, paytaxt Bakıda keçirilən bir sıra beynəlxalq tədbirlər də ilin bütün fəsillərində bu gözəl şəhərə qonaqların axınına səbəb olur: Bakı, sabahın xeyir...

***Məhəmməd NƏRİMANOĞLU,***
***Ağaəli MƏMMƏDOV (foto),***
***"Azərbaycan"***

# İlham Əliyevdən Ermənistana daha bir zərbə

## Azərbaycan Prezidenti MDB ölkələrinin ordu generalları ilə görüşdə də işğalçı ölkənin faşizm ideologiyasını növbəti dəfə ifşa etdi

Əvvəli 1-ci səh.

Həmçinin beynəlxalq hərbi əməkdaşlıq Müdafiə Nazirliyinin hərbi, hərbi təhsil, hərbi-siyasi və hərbi-texniki sahələrdə xarici dövlətlərin hərbi qurumları və beynəlxalq təşkilatlarla ikitərəfli və çoxtərəfli formatda həyata keçirdiyi kompleks fəaliyyətlərdir.

Beynəlxalq hərbi əməkdaşlığa gəlincə, bu gün Azərbaycanın bir çox nüfuzlu təşkilatlarla ikitərəfli və çoxtərəfli hərbi əməkdaşlıq əlaqələri mövcuddur. Bunların sırasında NATO, ATƏT, MDB, BQXK (Beynəlxalq Qızıl Xaç Komitəsi) və CISM (Beynəlxalq Hərbi İdman Şurası) ilə əməkdaşlıq, beynəlxalq sülhməramlı əməliyyatlarda iştirakı göstərmək olar.

İşğalçı Ermənistan istisna olmaqla MDB ölkələri ilə çoxsahəli hərbi əməkdaşlığın inkişafında maraqlı olan Azərbaycan bu əlaqələrin daha da şaxələnməsinə davamlı töhfələr verir. Müdafiə naziri general-polkovnik Zakir Həsənov da vurğulayıb ki, MDB Müdafiə Nazirləri Şurasının 77-ci iclasında qəbul olunan qərarlar MDB formatında çoxtərəfli əməkdaşlıq sisteminin təkmilləşdirilməsinə yönəlib və hərbi sahədə qarşılıqlı, səmərəli tərəfdaşlıq əlaqələrinin inkişafına töhfə verəcək: "Ümid edirik ki, bu iclas ölkələrimiz arasında əməkdaşlığın inkişafına və dərinləşməsinə əlavə stimul verəcək, əməkdaşlığın yeni perspektivlərini müəyyən edəcək, habelə dövlətlərimizdə sülhün, sabitliyin və təhlükəsizliyin möhkəmlənməsinə töhfə verəcək".

### Azərbaycanda Qələbənin 75 illiyinə çox fəal hazırlıq gedir

MDB Müdafiə Nazirləri Şurasının iclasının iştirakçılarının qəbulu zamanı Prezident İlham Əliyev vurğuladı ki, Bakıda keçirilən bu tədbir özlüyündə çox böyük əhəmiyyət kəsb edir. Bu, ölkələri daha sıx birləşdirir, ikitərəfli gündəliyə dair söhbət etmək üçün yaxşı imkan yaradır.

Bu yaxınlarda Aşqabadda dövlət başçılarının Zirvə görüşünü xatırlayan dövlət başçısı onun çox uğurlu keçdiyini və MDB üzvü olan digər ölkələr kimi, Azərbaycanın da bu təşkilatda iştiraka böyük əhəmiyyət verdiyini söylədi: "Bir sıra məsələlərə dair bizim konstruktiv mövqeyimiz də MDB çərçivəsində qarşılıqlı fəaliyyətin daha da möhkəmlənməsinə töhfə verir. Əlbəttə, xüsusən müasir mərhələdə bizim regionda mövcud olan və yarana biləcək təhlükələr nəzərə alınmaqla hərbi sahədə əməkdaşlıq çox böyük əhəmiyyət kəsb edir. Zənnimcə, buna görə MDB üzvü olan ölkələrin sabitliyi və davamlı inkişafı çox cəhətdən dövlətlərimizin təhlükəsizliyini təmin edən orqanların qarşılıqlı fəaliyyətindən asılıdır".

Qeyd edək ki, dövlət başçılarının Aşqabad Zirvə Görüşü çərçivəsində müzakirə edilən mövzulardan biri Böyük Vətən müharibəsində Qələbənin 75 illiyinə hazırlıq məsələsi idi. Prezident ölkəmizin də buna çox fəal hazırlaşdığını deyərək vurğuladı ki, bu, ümumi Qələbədir və Azərbaycanda 9 May günü uzun illərdir dövlət bayramı kimi qeyd edilir. Ölkədə veteranlara qayğı dövlətin gündəlik işinin ayrılmaz tərkib hissəsidir. Veteranlar diqqət və qayğı ilə əhatə olunub, onların maddi vəziyyəti təmin edilir. Onlar hər kəs üçün qəhrəmanlıq nümunəsidir: "Böyük Vətən müharibəsində ümumi Qələbəyə Azərbaycan xalqının da sanballı töhfəsi olub. Xalqımızın 600 mindən çox nümayəndəsi müharibədə iştirak edib, onların yarısı ümumi Qələbəmiz uğrunda canlarından keçib. Sovet İttifaqı qəhrəmanlarından 170 nəfəri Azərbaycanın nümayəndələridir. Bu, xalqımızın qürur mənbəyi, böyüməkdə olan nəsil üçün örnəkdir".

### Ermənistanda nasizm dövlət səviyyəsində təbliğ edilir

Cənab İlham Əliyev görüşdə Aşqabad zirvəsində səsləndirdiyi fikirləri bir daha diqqətə çarpdıraraq bu gün erməni faşizminin dünya üçün qlobal təhdid olduğunu söylədi. Qeyd etdi ki, bəzən kimlərsə tarixin saxtalaşdırılması, faşizmin qəhrəmanlıq kimi qələmə verilməsi, tarixin yenidən yazılması kimi cəhdlər edir. Bu da əlbəttə ki, təəssüf doğurur. Azərbaycan da bu məsələyə çox həssas yanaşır. Çünki bu, təkcə tarixin təhrif edilməsi baxımından deyil, gələcək nəsillər üçün də böyük təhlükədir.

Ona görə də müharibənin səbəbləri haqqında, təcavüzkarın kim olması və həm ölkəsini, həm də dünyanın yarısını XX əsrin bu taunundan xilas etmiş sovet xalqının qəhrəmanlığı barədə həqiqətin dünyaya çatdırılması üçün ümumi səylərlə çox fəal iş aparılmalıdır: "Aşqabad Zirvə görüşü zamanı mən belə bir məsələ də qaldırdım ki, MDB məkanında da təəssüf ki, faşizmin qəhrəmanlıq kimi qələmə verilməsi faktları var. Məhz Ermənistanda faşist cəllad Ter-Arutyunyan qəhrəman səviyyəsinə qaldırılıb. Ermənistanda meydanlara, küçələrə onun adı verilib. Bir neçə il bundan əvvəl isə Ermənistan paytaxtının mərkəzində ona təqribən 6 metr hündürlüyündə heykəl qoyulub. Bu adam deyirdi ki, "Almaniya uğrunda ölənlər Ermənistan uğrunda ölür". Bu adam SMERŞ tərəfindən tutularaq uzunmüddətli həbs cəzasına məhkum edilib və onun şərəfsiz ömrü Vladimir həbsxanasında başa çatıb".

Ermənistanın əvvəlki hakimiyyəti tərəfindən qoyulan bu heykəl hələ də götürülməyib. Bu isə onu təsdiq edir ki, işğalçı ölkədə nasizm dövlət səviyyəsində təbliğ edilir. Hətta MDB ölkələrindən olan müharibə veteranlarının böyük bir qrupu Ermənistanın əvvəlki rəhbərliyinin bu həyasız addımına qarşı dəfələrlə etirazını bildirib. Prezident bunu MDB məkanında yolverilməz hərəkət kimi qiymətləndirdi və bildirdi ki, bu, erməni tərəfin səmimiyyəti barədə çox böyük suallar doğurur: "Erməni tərəfi deyir ki, o da qəhrəmanların xatirəsinə ehtiram bəsləyir. Bu, nonsensdir, ona görə ki, onlar faşistlərin əlaltılarının xatirəsinə ehtiram bəsləyir, yəni, əslində, bu mənfur əməllərə qarşı mübarizədə canlarından keçmiş insanların xatirəsinin təhqir edildiyini görürük. Buna görə biz öz tərəfimizdən bundan sonra da həm birlik ölkələrinin, həm də digər dövlətlərin ictimaiyyətinin bu məsələyə diqqətini Qələbənin 75 illiyinə hazırlıq prizmasından cəlb edəcəyik. Düşünürəm ki, biz birgə səylərimizlə bundan sonra da işimizi bu istiqamətdə davam etdirəcəyik ki, Böyük Vətən müharibəsi haqqında həqiqət bütün dünya birliyinin, xüsusən gənc nəslin diqqətinə çatdırılsın".

Görüş zamanı Rusiya Federasiyasının Müdafiə naziri, ordu generalı Sergey Şoyqu vurğuladı ki, tarixi yenidən yazmaq, qalibləri məğlublar, məğlubları isə qaliblər kimi qələmə vermək məqsədilə göstərilən hər hansı cəhdlərə qarşı mübarizə aparmaq üçün nə mümkündürsə etmək lazımdır. Eyni sözlər bu böyük savaşın, ağır müharibənin gedişində törədilmiş cinayətlərə də aiddir:

"Bu gün bir tərəfdən tarixi yenidən yazmaq, digər tərəfdən qaliblərin məğlub sayılması üçün əlindən gələni etmək istəyənlərin sayı get-gedə artmaqdadır. Biz bunu nəzərə alaraq, bütün həmkarlarımızı Moskvada keçiriləcək bayram tədbirinə dəvət etmişik ki, birlik ölkələrindən olan hərbi kontingent Qızıl Meydanda Qələbə paradında iştirak etsin. Ümidvaram ki, azərbaycanlı hərbi qulluqçular da əvvəllər olduğu kimi, bu tədbirdə çox fəal iştirak edəcəklər".

Əməkdaşlığa gəldikdə isə Sergey Şoyqu qeyd etdi ki, əlaqələr birlikdə baxılan və təsdiq etdilən planlar üzrə inkişaf edir. Bu gün Rusiyanın beynəlxalq terrorizmə qarşı mübarizədə böyük təcrübə qazandığını söyləyən ordu generalı bu təcrübəni həmkarları ilə bölüşməyə hazır olduqlarını da söylədi. Onun fikrincə, bu, həm beynəlxalq terrorizmə qarşı mübarizə, həm humanitar kömək, o cümlədən minalardan təmizləmə, tibbi yardım və bir sıra başqa məsələlərə aiddir.

Ümumiyyətlə, MDB ölkələrinin müdafiə nazirlərinin hər bir görüşü təsdiq edir ki, üzv dövlətlərin hərbi əməkdaşlığının genişləndirilməsində ümumi maraqlar üst-üstə düşür. MDB ölkələrinin Müdafiə Nazirləri Şurasının Bakıdakı 77-ci iclasında və Prezident İlham Əliyevlə keçirilən görüşdə səslənən fikirlər isə bir daha təsdiq edir ki, aparılan müzakirələr, qəbul edilən qərarlar tərəflər arasındakı əməkdaşlığın daha da möhkəmlənməsinə kömək edəcək.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Azərbaycanda ilk: UNEC tələbələrinə “Smart tələbə kart”ları təqdim olundu



UNEC-də ilk dəfə olaraq “Smart tələbə kartı”nın təqdimolunma mərasimi keçirilib. Azərbaycan Respublikası Təhsil Nazirliyinin, Mərkəzi Bankın və UNEC-in təşəbbüsü, “Kapital Bank” və “Mastercard”ın dəstəyi ilə həyata keçirilən “Smart tələbə kartı” layihəsi Azərbaycan Prezidentinin sərəncamına əsasən təsdiq edilən “2018-2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı”nda nəzərdə tutulan tədbirlərin icrasını təmin etmək məqsədilə həyata keçirilib.

Tədbirdə Təhsil nazirinin müavini Firudin Qurbanov, Mərkəzi Bankın sədrinin birinci müavini Alim Quliyev, UNEC-in rektoru, professor Ədalət Muradov, “Mastercard”ın Azərbaycan üzrə ölkə direktoru Erdem Çakar, bank rəhbərləri, ali təhsil müəssisələrinin rektorları, Təhsil Nazirliyinin rəsmiləri, universitetin müəllim-tələbə heyəti və media nümayəndələri iştirak ediblər.

Rektor Ədalət Muradov UNEC-də dünyanın aparıcı universitetlərinin tətbiq etdiyi “Smart tələbə kartı” ilə bağlı iki il öncədən hazırlıqlara başlanıldığını bildirib. Layihənin uğurla nəticələndiyini deyən rektor, UNEC tələbələrinin ölkədə ilk dəfə olaraq tətbiq olunan “Smart tələbə kart”larına sahib olmalarından qürur duyduğunu ifadə edib. Professor Ədalət Muradov UNEC-də son 5 ildə uğurla tətbiq olunan Elektron Universitet Modelinin üstünlüklərindən söz açıb, “Smart tələbə kartı”nın həmin model çərçivəsində həyata keçirildiyini qeyd edib.

Mərkəzi Bankın sədrinin birinci müavini Alim Quliyev Azərbaycan Prezidentinin 26 sentyabr 2018-ci il tarixli sərəncamı ilə təsdiqlənən “2018-2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı”nın icrası çərçivəsində həyata keçirilən bu layihənin müasir ödəniş mədəniyyətinə malik yeni nəslin yetişməsində, ölkədə rəqəmsal ödəniş ekosisteminin inkişafında mühüm dəstək olacağını qeyd edib. Ali təhsil müəssisələri tələbələrinin bu layihəyə cəlb edilməsinin bütövlükdə təhsillə bank sistemi arasında sıx əməkdaşlığa yeni imkanlar yaratdığını vurğulayıb. “Smart tələbə kartı”nın ölkə ali təhsil müəssisələri arasında ilk dəfə UNEC-də tətbiqinin təsadüfi olmadığını deyən Mərkəzi Bankın rəsmisi, universitetin son 5 ildə innovativ layihələri ilə öndə olduğunu diqqətə çatdırıb.

Təhsil nazirinin müavini Firudin Qurbanov dünyanın aparıcı universitetlərinin “Smart tələbə kartı” təcrübəsinin Azərbaycan universitetlərində tətbiqini yüksək qiymətləndirərək, kartın əhəmiyyətindən danışıb. Nazir müavini bildirib ki, bununla bağlı ali təhsil müəssisələrində mövcud olan tələbə biletinin yeni vahid standartının təsdiq edilməsi, onun əsasında müasir ödəniş funksionallı tələbə kartlarının hazırlanması və ölkədə təhsil alan tələbələrə təqdim olunması istiqamətində işlər aparılır.

Tədbirdə çıxış edən “Mastercard”ın Azərbaycan üzrə ölkə direktoru Erdem Çakar Azərbaycanda belə bir layihənin ilk dəfə reallaşdırılmasında iştirak etdiklərindən qürur duyduğunu bildirib və “Smart tələbə kartı”nın tələbələrə verəcəyi üstünlüklərdən danışıb.

Sonra “Kapital Bank”ın nümayəndəsi “Smart tələbə kartı” barədə təqdimat nümayiş etdirib. Bildirilib ki, kart vasitəsilə tələbələr təqaüdlərini alacaq, ölkə daxilində və xaricdə həmin kartlarla istənilən ödənişlərini həyata keçirəcəklər. Regionlarda yaşayan valideynlər övladlarına rahatlıqla maliyyə vəsaiti göndərə biləcək. Tələbələr “Smart kart”dan universitetə, UNEC-in 24/7 kitabxanasına və oxu zallarına giriş üçün də istifadə edə biləcəklər. Gələcəkdə bu kartın əhatə imkanlarının daha da genişləndirilməsi, ictimai nəqliyyatda, tələbələr üçün xüsusi endirim kampaniyalarında və digər xidmət sahələrində istifadə olunmasının nəzərdə tutulduğu vurğulanıb.

Sonda UNEC-in birinci kursunda oxuyan 20 nəfər Prezident təqaüdçüsünə “Smart tələbə kart”ları təqdim olunub.

***Məhəmməd NƏRİMANOĞLU, “Azərbaycan”***

# Bakıya 458 yeni lift gətirilib

Azərbaycan Prezidenti İlham Əliyevin Bakı şəhərində çoxmənzilli binaların lift təsərrüfatının maddi-texniki bazasının möhkəmləndirilməsi ilə bağlı imzaladığı sərəncamının icrası ilə əlaqədar Bakı Şəhər “Lifttəmir” İstehsalat Birliyi tərəfindən bu sahədə çox böyük təcrübəsi olan və geniş texniki imkanlara malik Almaniya Federativ Respublikasının Wittur Holding GMBH şirkəti ilə müqavilə imzalanıb.





Bakı şəhər “Lifttəmir” İstehsalat Birliyinin, Almaniyanın Wittur Holding GMBH şirkətinin, həmçinin Azərbaycanın bir sıra tanınmış şirkət və kompaniya rəhbərlərinin iştirakı ilə təqdimat mərasimi, Bakıda yeni liftlərin quraşdırılmasının bu günə olan vəziyyəti, bu istiqamətdə gələcəkdə görüləcək işlərə həsr olunmuş tədbir keçirilmişdir.

Təqdimat mərasimində əvvəlcə Wittur Holding GMBH şirkətinin Global satış şöbəsinin rəhbəri Ahmet Örs, marketinq direktoru Gerd İmbusch, digər rəsmi şəxslər şirkət, onun məhsulları, biznes tərəfdaşları, müxtəlif ölkələrdə, o cümlədən Azərbaycanda həyata keçirdikləri layihələr barədə məlumat vermiş, videoçarx nümayiş etdirmişlər.

Şirkətin Bakı şəhərində həyata keçirdiyi layihə müzakirə olunmuş, yeni liftlərin quraşdırılmasının vəziyyəti və gələcəkdə bu istiqamətdə görüləcək işlər barədə şəhər “Lifttəmir” İstehsalat Birliyinin rəhbəri Xalid Ələkbərov, şirkətin marketinq direktoru Gerd İmbusch və Avropa satış şobəsinin rəhbəri Ralph Hunter ətraflı məlumat vermişlər.

Qeyd olunub ki, imzalanmış müqavilə əsasında bu il 542 liftin Bakıya gətirilməsi nəzərdə tutulub. İlk işlər pilot layihə kimi Nizami rayonunda başlanmış, sonradan isə bu işlər digər rayonlarda davam etdirilmişdir. Hazırda müqavilədə nəzərdə tutulan 542 ədəd liftin 458-i artıq Bakıya gətirilib. Bu günə kimi 162 ədəd lift quraşdırılaraq Fövqəladə Hallar Nazirliyinin müvafiq qurumları tərəfindən qeydiyyata alınıb və istismarına icazə verilib. Hazırda paytaxtın Nizami, Qaradağ, Xətai, Nərimanov, Binəqədi, Sabunçu, Yasamal və Nəsimi rayonlarında 296 ədəd yeni liftin quraşdırılması işləri aparılır.

“Lifttəmir” İstehsalat Birliyi tərəfindən eyni zamanda istismar müddəti bitməyən liftlərin də təmir işləri aparılır. Liftlərə texniki xidmət göstərilməsi işlərinin daha da yaxşılaşdırılması üçün vahid dispetçer məntəqəsi yaradılır, işçi personalın texniki biliklərinin artırılması üçün əlavə işlər görülür. Qeyd olundu ki, alınan liftlər keyfiyyət və texniki parametrlərinə görə müasir standartlara tam cavab verir. Yeni liftlər müasir elektron sistemlə təchiz olunmuş, elektrik xətlərində açılma zamanı YPS sistemi movcuddur ki, vətəndaşlar avtomatik təxliyə olunsun. Görmə qabiliyyəti məhdud olan şəxslərin liftdən istifadəsi üçün çöl və içəri düymələrində mərtəbə göstəriciləri brayl əlifbası ilə işarələnmişdir.

Bildirildi ki, Bakı şəhəri üzrə çoxmərtəbəli binalarda istismar müddəti ötmüş liftlərin dəyişdirilməsi gələn ildə də davam etdiriləcək və yeni liftlər alınacaq. İstismar müddəti ötən liftlər dəyişdiriləcək.

***Elçin CƏFƏROV, “Azərbaycan”***

# Silahlı Qüvvələrə Yardım Fonduna daxil olan vəsaitin məbləği açıqlanıb

Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə Yardım Fonduna cari il noyabrın 1-dək 104 milyon 234 min 547,81 manat, 213 min 577,88 ABŞ dolları, 17 min 566 avro və 5000 rubl vəsait yığılıb.

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

Silahlı Qüvvələrə Yardım Fondu Azərbaycan Prezidentinin 2002-ci il 17 avqust tarixli fərmanı ilə yaradılıb. Fond Azərbaycan Respublikası Silahlı Qüvvələrinin müasir tələblər səviyyəsində inkişafını təmin etmək, onun maddi-texniki bazasını möhkəmləndirmək və zəruri sosial tədbirləri maliyyələşdirmək məqsədilə yaradılıb. Fondun maliyyə mənbəyi Azərbaycan Respublikası Silahlı Qüvvələrinin maddi-texniki və sosial bazasının möhkəmləndirilməsinə maliyyə köməyi məqsədilə Azərbaycanın ərazisində fəaliyyət göstərən hüquqi və fiziki şəxslərdən könüllülük əsasında daxil olan maliyyə vəsaiti və qanunvericiliklə qadağan edilməyən digər daxilolmalardır.

Fondun əsas vəzifəsi Azərbaycan Respublikasının etibarlı müdafiəsi üçün Silahlı Qüvvələrin inkişafını və onun maddi-texniki bazasının möhkəmləndirilməsini, həmçinin hərbi qulluqçuların sosial müdafiəsinin daha da gücləndirilməsini təmin etməkdir.

# Ermənistan silahlı qüvvələri atəşkəs rejimini 23 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan və snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 23 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Ermənistan Respublikasının İcevan rayonunun Paravakar kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonu ərazisindəki adsız yüksəkliklərdə, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Tağıbəyli, Şirvanlı, Mərzili, Füzuli rayonunun Aşağı Seyidəhmədli, Qorqan kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

## 23 dekabr bələdiyyə seçkiləri günüdür

# Dövlət vətəndaşların seçki hüququnun qorunmasına təminat verir

## Seçki hüququnun pozulması ilə əlaqədar şikayət və müraciətlərin Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına verilməsi və onlara baxılması qaydaları

Azərbaycan dövləti vətəndaşlarının iradəsinin azad ifadə edilməsinə seçki hüququnun prinsip və normalarının müdafiə edilməsi yolu ilə təminat verir.



Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası (MSK) seçkilərin hazırlanması və keçirilməsində vətəndaşların seçki hüquqlarına riayət olunmasına nəzarət edir, Seçki Məcəlləsi ilə müəyyənləşdirilmiş qaydaların pozulması ilə əlaqədar şikayətlərə öz səlahiyyətləri daxilində baxıb əsaslandırılmış qərarlar qəbul edir.

Seçki şikayəti seçkilərlə əlaqədar sənədlərin, qərarların, hərəkətlərin (hərəkətsizliyin) nəticələrinin ləğv edilməsinə və ya bu nəticələrə yenidən baxılmasına yönəldilmiş müraciətdir və belə müraciətlərin verilməsinə dair ümumi tələblər vardır.

Ümumiyyətlə, vətəndaşların seçki hüququnu pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) şikayət edilməsi, vətəndaşların seçki hüquqlarının pozulması haqqında şikayətlərin araşdırılması Seçki Məcəlləsinin 112 və 112-1 maddələri və MSK-nın 12 avqust 2008-ci il tarixli 11/53-1 və 11/53-2 saylı qərarları ilə təsdiq edilmiş “Məntəqə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında” və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında” təlimatlarla həyata keçirilir.

Həmin normativ xarakterli aktlarda vətəndaşların seçki hüquqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) şikayətvermə qaydası, müddəti və şikayətin forması müəyyənləşdirilib. Seçicilər, namizədlər, qeydə alınmış namizədlər, siyasi partiyalar, siyasi partiyaların blokları, qeydə alınmış namizədlərin, siyasi partiyaların, siyasi partiya bloklarının vəkil edilmiş şəxsləri, müşahidəçilər, habelə seçki komissiyaları vətəndaşların seçki hüquqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) həmin qərarın dərc edildiyi və ya alındığı, hərəkətin (hərəkətsizliyin) baş verdiyi gündən və ya maraqlı şəxsin bu haqda məlumat aldığı gündən başlayaraq 3 gün müddətində şikayət edə bilərlər. Şikayət bir qayda olaraq yazılı verilir. Onun yazılı şəkildə verilməsi mümkün deyilsə, müstəsna hallarda şifahi, telefonla və ya elektron poçt vasitəsilə verilə bilər. Şikayətin verilmə müddətinin axını şikayətin verilməsi üçün hüququn əldə edilməsi anından başlanır və şikayətin poçta və ya istənilən komissiyaya verilməsi anında bitir.

Şikayət ilkin olaraq yuxarı seçki komissiyası tərəfindən təmin edilməzsə, dairə seçki komissiyasının qərarından və ya hərəkətindən (hərəkətsizliyindən) MSK-ya, MSK-nın qərarından və ya hərəkətindən (hərəkətsizliyindən) isə apelyasiya instansiya məhkəməsinə şikayət edə bilər.

Şikayətdə göstərilmiş qanun pozuntusu Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə uyğun olaraq cinayət hesab oluna bilərsə, müvafiq seçki komissiyası şikayətdə göstərilən çatışmazlıqların və qanun pozuntularının aradan qaldırılmasına dair qərar qəbul etməklə yanaşı, cinayət işinin başlanması məqsədi ilə müvafiq prokurorluq orqanına müraciət edir. Hər bir şikayətə dair MSK əsaslandırılmış qərar qəbul etməlidir.

Vətəndaşlar tərəfindən təqdim edilən şikayətlərdə şikayətin ünvanlandığı komissiyanın adı, şikayəti edən subyektə şikayətin baxılmasının vaxtı haqqında bildirişin göndərilməsi üçün ünvan və şikayətin obyekti olan qərar, hərəkət və ya hərəkətsizlik əks olunmalıdır.

Əgər şikayətin obyekti qərardırsa, qərar şikayətə əlavə edilməli, mübahisə obyekti olan qərarı qəbul etmiş seçki komissiyasının və ya dövlət orqanının adı qeyd olunmalı, vəzifəli şəxs göstərilməlidir. Şikayətin obyekti hərəkətdirsə, qeyri-qanuni hərəkəti edən şəxsin adı, vəzifəsi, hərəkətin mahiyyəti, onun törədildiyi yer və vaxt aydın şəkildə göstərilməlidir. Şikayətin obyekti hərəkətsizlik olduqda isə şikayətçi cavabsız qalmış tələbi və tələbi cavabsız qoyan orqanın və ya şəxsin adını qeyd etməlidir.

Şikayət üçün əsas Seçki Məcəlləsinin, digər qanunvericilik aktlarının pozulmasının güman edilməsi ola bilər. Verilən şikayətdə güman edilən pozuntunun dəlilləri və ya pozuntunun nədən ibarət olduğunun izahı, şikayətçinin tələbi öz əksini tapmalı, aşağı seçki komissiyasının qərarından yuxarı seçki komissiyasına müraciət edildikdə şikayətə müvafiq seçki komissiyasının qərarı əlavə edilməlidir.

Şikayətçi həmin şikayəti imzalamalıdır. Əgər şikayət seçkilərdə iştirak edən siyasi partiya və ya siyasi partiya blokları tərəfindən verilibsə, onda şikayət səlahiyyətli nümayəndənin səlahiyyətlərini təsdiq edən sənəd əlavə edilməklə səlahiyyətli nümayəndə tərəfindən imzalanmalıdır.

Şikayətçi öz ərizəsində şikayətin araşdırılmasında iştirak etmək niyyətində olub-olmadığını da bildirməlidir. Şikayətin yazılı və ya şifahi edilməsindən asılı olmayaraq onu qəbul edən seçki komissiyasının səlahiyyətlisi qeyd etdiyimiz bütün tələblərin orada öz əksini tapmasına əmin olmalıdır. Əgər şikayətdə qanunla nəzərdə tutulmuş şərtlərdən hər hansı biri yoxdursa və bu səbəbdən tələb aydın deyilsə, şikayət onu göndərən şəxsə geri qaytarılır.

Seçki komissiyasının qərarı məhkəmə tərəfindən ləğv edildikdə, qərarı ləğv edilmiş seçki komissiyası məsələnin mahiyyəti üzrə yeni qərar qəbul etməli və ya məhkəmənin qərarı əsasında yuxarı seçki komissiyası müvafiq qərar qəbul etməlidir. Məhkəmə qərarlarının icra edilməməsi müvafiq qanunvericiliyə uyğun olaraq cinayət məsuliyyətinə səbəb olur. Yuxarı seçki komissiyası aşağı seçki komissiyasının qərarını ləğv etmək, məsələnin mahiyyəti üzrə qərar qəbul etmək və ya məsələyə yenidən baxılması haqqında göstəriş vermək hüququna malikdir. Seçki komissiyasına seçkilərin gedişi zamanı daxil olan hər bir şikayət üzrə qərar 3 gün müddətində, səsvermə gününə 30 gündən az müddət qalırsa, 2 gün müddətində, səsvermə günü və yaxud növbəti gün isə dərhal qəbul edilir və şikayətçiyə çatdırılır.

Müvafiq seçki komissiyalarına təqdim edilmiş anonim şikayətlərə baxılmır və onlar daxil olduqdan sonra işə alınır. Şikayətin baxılması komissiyanın səlahiyyətlərinə aid olduqda verilmiş şikayətin qəbul olunmasından və ya araşdırılmasından imtina edilməsi və ya şikayəti şifahi qəbul edən zaman şikayətçi tərəfindən göstərilən tələblərin qeyd olunmaması qanunvericiliyə görə məsuliyyət yarada bilər.

Seçki komissiyaları öz səlahiyyətlərinə aid olmayan müraciət və şikayətlərə mahiyyəti üzrə baxıb təmin və ya rəddetmə barədə qərar qəbul edə bilməzlər. Bu halda şikayətlə bağlı aidiyyəti üzrə göndərmə barədə qərar qəbul edilməlidir.

Müvafiq seçki komissiyaları qəbul edilən şikayətlərin qeydiyyat kitabçasında qəbuletmə tarixi və ardıcıl olaraq qeydiyyat nömrəsi göstərilməklə qeydiyyatını aparmalıdır. Şikayətin qeydiyyatı seçki komissiyalarının katibliyi vasitəsilə həyata keçirilir. Seçki komissiyasına telefon və ya internet vasitəsilə müraciət edilərsə, müraciət edən şəxsə onun hüquqları izah edilir, mümkün olarsa müraciət dərhal cavablandırılır.

Şikayətlərin araşdırılması məqsədilə MSK nəzdində 9 nəfərdən, dairə seçki komissiyaları nəzdində isə 3 nəfərdən ibarət ekspert qrupları yaradılır. Ekspert qrupu üzvlərinin təyinatı zamanı onların peşəkarlığı, faktiki və hüquqi təhlillər aparmaq bacarığı, seçki sahəsində təcrübəsi əsas götürülür. Qrupa bu tələblərə cavab verən seçki komissiyası katibliyinin əməkdaşları, komissiya üzvləri də daxil edilə bilər.

Ekspert qrupunun yaradılması tərkibi haqqında qərar qəbul edildikdən sonra 24 saat ərzində dərc edilir. Ekspert qrupunun səlahiyyət müddəti onun yaradılması haqqında seçki komissiyası qərarının verildiyi gündən başlanır və seçkilərin ümumi nəticələrinin rəsmi dərc edildiyi gün başa çatır. Şikayətlərin araşdırılması zamanı ekspert qrupunun üzvü müstəqildir, yalnız qanuna tabedir və seçki komissiyaları tərəfindən müvafiq şəraitlə təmin edilir. Ekspert qrupu yaradıldıqdan sonra seçki komissiyasının katibi həm də qrupun əlaqələndiricisi (koordinator) kimi fəaliyyət göstərməyə başlayır. Koordinator ekspert qrupuna daxil deyil və onun işinin təşkilinə yardım və fəaliyyətinin qanunauyğunluqlarına diqqət yetirir.

Ekspert qrupunun koordinatorunun qrupun üzvləri arasında iş bölgüsünə, şikayətlərin araşdırılması vəziyyəti, müddəti və ona dair digər məsələlərlə bağlı müntəzəm məlumat almaq səlahiyyəti vardır. Bunlarla yanaşı koordinatorun zərurət olduqda ekspert qrupu üzvlərinin iclaslarını çağırmaq və şikayətlərin araşdırılması vəziyyətini onlarla müzakirə etmək, qrupun səmərəli fəaliyyət göstərməsi üçün zəruri təşkilati və digər tədbirlər görmək, ekspert rəylərinin və komissiya qərarları layihələrinin qanuna uyğun tərtib edilməsi üzərində nəzarəti həyata keçirmək kimi də səlahiyyətlərə malikdir.

Ekspert qrupu üzvləri qanunvericiliklə müəyyən olunmuş səlahiyyətlərə malikdirlər. Şikayət üzrə əlavə məlumat tələb etmək, öz sorğu-sual və araşdırmasını aparmaq, əlavə məlumat almaq üçün komissiyanın sədri vasitəsilə dövlət orqanlarına müraciət etmək, zəruri hallarda əlavə dəlillər əldə etmək, habelə komissiyanın və katiblik əməkdaşlarının köməyindən istifadə etmək, şikayət üzrə araşdırma materialları ilə birlikdə müvafiq seçki komissiyasına rəy və qərar layihələrini təqdim etmək də bu səlahiyyətlərə aiddir.

Seçki komissiyaları tərəfindən şikayət qeydə alındıqda və baxılması üçün ekspertə təqdim edildikdən sonra ekspert şikayəti ilkin olaraq nəzərdən keçirir. Bu zaman ekspert şikayətin Seçki Məcəlləsinə və müvafiq təlimatla müəyyən edilmiş qaydaların pozulması ilə daxil olduğunu aşkar etdikdə, bu barədə qrup koordinatorunu məlumatlandırmaqla, şikayətin onu təqdim edən şəxsə geri göndərilməsinə dair rəy verməlidir. Əgər şikayət düzgün və vaxtında tərtib edilibsə, bu halda ekspert qrupunun üzvü işə mahiyyəti üzrə baxıb əsaslandırılmış qərar qəbul edilməsi üçün müvafiq seçki komissiyasına rəy verməlidir. Bu zaman ekspert tərəfindən həm də qərar layihəsi tərtib edilir.

Şikayətin ekspert tərəfindən araşdırılması prosesində şikayətçinin yeni sənədlər və digər dəlillər təqdim etmək hüququ var. Ekspert şikayəti araşdırmaq üçün qəbul etdikdən sonra şəxsən, telefon və ya poçt vasitəsilə şikayətçinin şikayətinin araşdırılmağa başlandığı və bununla bağlı yeni dəlillər təqdim etmək hüququ izah edilir. Şikayətlərə baxılması nəticəsində ekspert qrupunun üzvləri aşağı seçki komissiyasının qərarının ləğv edilməsi, seçki subyektinə xəbərdarlıq edilməsi, Seçki Məcəlləsinin 113.2-ci maddəsində nəzərdə tutulmuş hallarda namizədin qeydə alınmasından imtina, qeydə alınmış namizədin qeydiyyatının ləğv edilməsi üçün məhkəməyə müraciət edilməsi barədə, habelə şikayətçinin qaldırdığı məsələnin müvafiq seçki komissiyasında yenidən baxılması barədə rəy verə bilərlər.

Ekspert qrupunun üzvü şikayətin araşdırılması əsasında müvafiq rəyi və şikayət üzrə qərar layihəsini müvafiq seçki komissiyasının iclasına çıxarır və iclasda bir qayda olaraq işlə bağlı qısa məruzə edir. Komissiya ekspert qrupu tərəfindən tövsiyə olunan qərar qəbul edərsə, onda komissiyanın yekun qərarı ekspert qrupunun təqdim etdiyi variantda tərtib edilir. Komissiya tövsiyə olunan qərarı qəbul etməzsə, bu zaman sədr fərqli mövqe təklif edən komissiya üzvünə müvafiq sübutlara və qanuna əsaslanan yeni qərar layihəsini hazırlamağı təklif edir. Komissiya həmin şikayət üzrə ekspert qrupu tərəfindən təkrar araşdırma aparılmasının zəruri olması qənaətinə gələrsə, şikayətin araşdırılması ekspert qrupunun digər üzvünə həvalə edilir ki, o da öz növbəsində müvafiq araşdırma aparıb şikayəti baxılmaq üçün yenidən komissiyaya təqdim edir. Komissiya şikayətlə bağlı qərar vermişdirsə, o, şikayətçini qərar barəsində xəbərdar etməlidir.

Beləliklə, yuxarıda göstərilənləri nəzərə alaraq əminliklə söyləmək olar ki, vətəndaşların seçki hüquqlarının müdafiəsi ilə bağlı şikayət və müraciətlərini hərtərəfli araşdırmaq və onların hüquqlarının tam təmin edilməsi üçün mükəmməl qanunvericilik bazası vardır. Mərkəzi Seçki Komissiyası və dairə seçki komissiyaları öz fəaliyyətlərini bu baza əsasında quraraq vətəndaşların seçki hüquqlarının daha səmərəli müdafiəsini təmin edirlər.

***Etibar QULİYEV, Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının üzvü***

# İŞİMİZ, GÜZƏRANIMIZ



*Əvvəli 1-ci səh.*

## Kadrlar dəyişsə də, tələblər dəyişmir

### Prezident İlham ƏLİYEV: "Şəffaflıq, dürüstlük hər bir dövlət məmuru üçün həyat tərzi olmalıdır"

Yeni Azərbaycan dövlətçiliyinin, iqtisadiyyatının inkişafında fəal iştirak edən, islahatların yüksək səviyyədə aparılmasında biliyini və təcrübəsini əsirgəməyən kadrlar həmişə dövlət tərəfindən yüksək qiymətləndiriləcək və onlara qarşı heç bir kampaniyanın aparılmasına yol verilməyəcək.

Prezident İlham Əliyev Anar Tağıyevi Yevlax Şəhər İcra Hakimiyyətinin başçısı, Elnur Rzayevi Xaçmaz Rayon İcra Hakimiyyətinin başçısı vəzifələrinə təyin olunması ilə əlaqədar qəbul edərkən əvvəlki görüşlərində olduğu kimi, kadr islahatlarına toxundu, özünün və Azərbaycan dövlətinin bu islahatlardan nə gözlədiyini izah etdi.

Dövlət başçısı yeni təyinat alan kadrlara sələflərindən danışmış, Şəmsəddin Xanbabayevin Naxçıvanda Ulu Öndər Heydər Əliyevin rəhbərliyi altında Baş Nazir, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini vəzifələrində çalışdığını, təcrübəli olduğunu və ən ağır dövrdə Heydər Əliyevə arxa durduğunu diqqətə çatdırmışdır. Ş.Xanbabayev son illər Xaçmaz rayonunda xeyli abadlıq işləri görmüş, böyük infrastruktur layihələrinin icrasında, aqroparkların, kənd yollarının salınmasında əməyini əsirgəməmişdir. Görüşdə həmçinin Yevlaxın böyük potensialı qeyd olunmuş, rayonda reallaşan böyük infrastruktur layihələrindən danışılmışdır.

İlham Əliev həmçinin yeni təyinat alan gənc icra başçılarına rəhbərlik edəcəkləri rayonların perspektivlərindən danışmış, bütünlükdə Şimal zonasının geniş turizm imkanları olduğunu qeyd etmiş, Qusarda özünün şəxsi təşəbbüsü ilə MDB məkanında ən yüksək səviyyəli dağ-xizək mərkəzlərindən birinin yaradıldığını bildirmişdir: "Şahdağ kurortu bu gün nəinki MDB-də, dünya miqyasında ən gözəl dağ-xizək kurortlarından biridir".

Bununla belə, dövlət başçısı nəzərə çatdırmışdır ki, Xaçmazın özünəməxsus gözəl təbii şəraiti, Nabran kimi nadir məkanı olsa da, rayonun turizm infrastrukturu müasir standartlara cavab vermir: "Mən Xaçmaz rayonuna son səfərim zamanı oradakı turizm imkanları ilə tanış oldum, gördüm ki, indiki Azərbaycanın inkişaf səviyyəsinə uyğun gəlmir. Bir sıra istirahət zonaları çox primitivdir, xidmət səviyyəsi də çox aşağıdır. Ona görə bu məsələyə çox böyük diqqət göstərilməlidir". Prezident dövlət xətti ilə rayonlara lazımi kömək göstəriləcəyini bildirsə də, yerli icra orqanlarının bu sahəyə böyük diqqət ayırmasını tələb kimi qarşıya qoymuş, kənd təsərrüfatının böyük potensialından faydalanmağın zəruriliyini qeyd etmişdir: "Sizin qarşınızda duran əsas vəzifələr rəhbərlik edəcəyiniz rayonların sosial-iqtisadi inkişafını təmin etməkdir. Siz vətəndaşlarla daim təmasda olmalısınız, bütün kəndləri gəzməlisiniz, kənd camaatı ilə görüşməlisiniz. Sizin işiniz kabinet işi olmamalıdır. Düzdür, əlbəttə ki, hər bir rəhbərin işi, o cümlədən qəbul edilən qərarlar, görülən işlər, keçirilən müşavirələr - bütün bunlar hər bir rəhbər işçinin gündəlik həyat tərzidir. Ancaq siz çox mobil başçılar kimi fəaliyyət göstərməlisiniz".

Prezident hər iki RİH başçısının qarşısında ciddi tələb kimi qoydu ki, onlar vətəndaşların qayğıları ilə yaşamalı, əhalinin problemlərini öyrənməli, düzgün təhlil aparmalı və rayon səviyyəsində həll olunmalı məsələləri yoluna qoymalıdırlar. Gücləri çatmayanda isə mərkəzi icra orqanlarına, o cümlədən Prezident Administrasiyasına müraciət etməlidirlər. Vətəndaşlarla daimi ünsiyyətdə olmaq, hamını narahat edən məsələləri daha dərindən öyrənib adekvat tədbirlər görmək lazımdır.

Dövlət başçısının toxunduğu ən vacib məsələlərdən biri də bütün xoşagəlməz hallara son qoyulması, rüşvətxorluğun və korrupsiyanın kökünün kəsilməsi ilə bağlı oldu: "Mən sizə şəxsən bu göstərişi verirəm. Əgər eşitsəm, bilsəm ki, əyri yola gedirsiniz, onda siz çox ciddi cəzalandırılacaqsınız. Bunu bəri başdan bilin və bütün başqa yerli icra orqanlarının nümayəndələri, rəhbərləri məni yaxşı eşitsinlər. Korrupsiyaya, rüşvətxorluğa qarşı Azərbaycanda amansız mübarizə aparılmalıdır. Bu yara bizim inkişafımızı ləngidir və gələcəyə olan planlarımızı sarsıda bilər. Düzdür, bu bəla hər bir ölkədə var. Amma əsas məsələ ondadır ki, rəhbərlik bu məsələyə necə münasibət göstərir. Azərbaycanda şəffaflıq, dürüstlük hər bir dövlət məmuru üçün həyat tərzi olmalıdır".

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

## 5,1 milyon iqtisadi fəal əhalinin 4,9 milyon nəfəri işlə təmin olunmuşdur

**Cari il oktyabrın 1-nə olan ilkin məlumatlara görə, ölkə üzrə iqtisadi fəal əhalinin sayı 5 milyon 195,3 min nəfər olmuşdur. Onlardan 4 milyon 943,6 min nəfəri məşğul əhalidir.**



Dövlət Statistika Komitəsinin hesabatına əsasən, sentyabrın 1-i vəziyyətinə ölkədə muzdla işləyənlərin sayı 1,6 milyon, o cümlədən iqtisadiyyatın dövlət sektorunda 899 min, qeyri-dövlət sektorunda 712,1 min nəfər olmuşdur. Neft-qaz sektorunda 34,7 min, qeyri-neft-qaz sektorunda isə 1,5 milyon nəfərdən çox adam çalışır.

Müəssisə və təşkilatlarda muzdla çalışan işçilərin 24,1 faizi məhsul istehsalı sahələrində (7,5 faizi tikintidə, 7,4 faizi emal sənayesində, 3,3 faizi kənd və meşə təsərrüfatında, balıqçılıqda, 2,2 faizi mədənçıxarmada, 1,9 faizi su təchizatı, tullantıların təmizlənməsi və emalı, 1,8 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı) çalışır.

Xidmət sahəsində isə əhalinin 20,4 faizi təhsil, 18 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 8,3 faizi səhiyyə və sosial xidmət, 6,9 faizi dövlət idarəetməsi və müdafiə; sosial təminat, 4,6 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,8 faizi inzibati və yardımçı xidmətlərin göstərilməsi, 3,4 faizi istirahət, əyləncə, incəsənət, bir o qədəri peşə, elmi və texniki fəaliyyət və digər sahələrdə işləyir.

## Pərakəndə ticarət dövriyyəsində 3 faiz artım var

**İlin əvvəlindən ötən 9 ay ərzində ölkə üzrə pərakəndə ticarət dövriyyəsi əvvəlki ilin müvafiq dövrünə nisbətən müqayisəli qiymətlərlə 3 faiz artaraq 27,6 milyard manata çatmışdır.**

Dövlət Statistika Komitəsinin bu barədə açıqladığı məlumatda bildirilir ki, hesabat dövründə pərakəndə ticarət şəbəkəsində bir istehlakçı orta hesabla 309,8 manatlıq (2018-ci ilin eyni dövrü ilə müqayisədə 13,5 manat çox) əmtəə almışdır. Həmin əmtəənin 13,9 milyard manatlıqdan çoxu ərzaq məhsulları, içkilər və tütün məmulatları olmuşdur ki, bu da 2018-ci ilin eyni dövründəkindən 2,6 faiz çoxdur. Ticarət dövriyyəsi 13,6 milyard manatlıqdan çox olan qeyri-ərzaq məhsullarının satışı isə müqayisə olunan dövrü 3,3 faiz üstələmişdir. Beləliklə, 9 ay ərzində bir istehlakçı orta hesabla 156,7 manatlıq ərzaq, içki və tütün məmulatları, 153,1 manatlıq qeyri-ərzaq məhsulları almışdır. Bu vəsaitin 45,9 faizi ərzaq məhsullarının, 4,7 faizi içki və tütün məmulatlarının, 18,1 faizi geyim və ayaqqabıların, 6,2 faizi elektrik malları və mebellərin, 5,5 faizi avtomobil yanacağının, 1,3 faizi əczaçılıq və tibbi malların, 0,8 faizi kompüterlər, telekommunikasiya avadanlıqlarının, 17,5 faizi isə digər qeyri-ərzaq məhsullarının alınmasına xərclənmişdir.

Bir neçə fakt da ödənişli xidmətlər barədə: hesabatda bildirilir ki, 9 ay ərzində ölkə üzrə əhaliyə göstərilən ödənişli xidmətlərin dəyəri keçən ilin müvafiq dövrünə nisbətən 2,1 faiz artaraq 6,5 milyard manatlıqdan çox olmuşdur. Bu dövrdə hər bir ölkə sakini orta hesabla 664,2 manatlıq (ötən ilin müvafiq dövründəkindən 23,3 faiz çox) müxtəlif ödənişlərdən istifadə etmişdir.

## Moskvada Rusiya-Azərbaycan regionlararası 10-cu forumun keçirilməsinə qərar verilib

**"Roskonqress" Fondundan verilən məlumata görə, noyabrın 22-23-də Moskvada Rusiya-Azərbaycan regionlararası 10-cu forumu keçiriləcək. Tədbir "Roskonqress" Fondunun dəstəyi ilə Azərbaycanın İqtisadiyyat Nazirliyi ilə Rusiyanın İqtisadi İnkişaf Nazirliyi tərəfindən birgə təşkil ediləcək.**

Rusiya-Azərbaycan regionlararası forumu dialoq üçün unikal məkandır. Forumun işgüzar proqramını noyabrın 22-də Rusiyanın İqtisadi İnkişaf naziri Maksim Oreşkin və Azərbaycanın İqtisadiyyat naziri Mikayıl Cabbarov açacaqlar. Proqramda - Rusiya-Azərbaycan və Azərbaycan-Rusiya işgüzar şuralarının geniş tərkibdə iclası, həmçinin nəqliyyat infrastrukturu, kənd təsərrüfatı, turizm və humanitar sfera kimi sahələrdə işgüzar regional əməkdaşlığın genişləndirilməsi məsələləri üzrə dörd "dəyirmi masa" keçirilməsi nəzərdə tutulur.

Xatırladaq ki, 2018-ci ildə keçirilmiş forumda Rusiyanın və Azərbaycanın dövlət hakimiyyət orqanlarını, ictimai təşkilatları, işgüzar dairələri, təhsil və elm müəssisələrini, həmçinin KİV-ni təmsil edən 1000-dən çox nümayəndə iştirak edirdi. Həmin tədbir çərçivəsində 17 saziş imzalanmışdır.

## Sahibkarlar işgüzar forumda toplaşmışlar

**İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondu (SİF) Kürdəmir rayonunda sahibkarlar üçün işgüzar forum təşkil edib.**

Tədbirdə SİF-dən güzəştli kreditlərin verilməsi mexanizmi barədə treninq, Kürdəmir rayonunun iqtisadi potensialının daha geniş reallaşdırılması məqsədilə prioritet hesab olunan intensiv bağçılıq, pambıqçılıq, istixana və cins heyvandarlıq təsərrüfatlarının, süd emalı müəssisəsinin yaradılması üzrə nümunəvi investisiya layihələrinin təqdimatı keçirilib.

İşgüzar forumda sahibkarların maarifləndirilməsi, müraciətlərinin operativ qaydada cavablandırılması, startapların dəstəklənməsi üçün SİF-də yaradılmış Sahibkarlara Xidmət və Biznes İnkubasiya mərkəzləri barədə məlumat verilib, sahibkarlar bu imkanlardan yararlanmağa dəvət olunub.

Tədbirdə sahibkarların sualları cavablandırılıb, təklifləri dinlənilib.

## Azərbaycan komandası "1-ci Robotexnika yarışı"nda iştirak edib

**Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin yaydığı məlumata görə, oktyabrın 27-31-də Daşkənddə İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində gənclər arasında "1-ci Robotexnika yarışı" keçirilib.**

2 kateqoriya - "ROBOT SUMO" və "ROBOT FUTBOL" kateqoriyaları üzrə keçirilən yarışda ölkəmizi Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar və Xarici İşlər nazirlikləri, eləcə də Azərbaycan Robotexnika Mühəndisliyi Akademiyasının (AREA) birgə təşkilatçılığı ilə hazırlanan komanda təmsil edib.

AREA-nın təsisçisi Rəhman Rəsulzadənin mentorluq etdiyi, akademiyanın təlimçisi Emin Bayramov və Xəzər Universitetinin tələbəsi Məhəmməd Məmmədlidən ibarət komanda üzvləri "ROBOT SUMO" yarışı üzrə 18-23 yaş kateqoriyasında iştirak ediblər.

Qeyd edək ki, 100-dən çox ölkədən nümayəndənin qatıldığı yarışda Azərbaycan ilk dəfə olaraq təmsil olunub və 7-ci yerə çıxaraq ilk onluğa düşüb.

## Azərbaycanın hərtərəfli inkişafının təməlində ölkənin iqtisadi müstəqilliyi dayanır

*Əvvəli 1-ci səh.*

Prezident İlham Əliyev müdrik sosial-iqtisadi siyasət yürüdərək neftdən gələn gəlirləri iqtisadiyyatın şaxələndirilməsinə, infrastruktur layihələrinin gerçəkləşdirilməsinə yönəldib, neft kapitalını insan kapitalına çevirib. Bu barədə dövlət başçısı belə deyib: "Məhz neft-qaz sektorunun inkişafı hesabına biz böyük infrastruktur layihələri icra etmişik, neft-qaz sektorunun gəlirləri hesabına biz 300 mindən çox köçkünü yerləşdirmişik, biz ordumuzu gücləndirmişik, biz böyük sosial layihələri icra etmişik. Əgər bizdə neft-qaz sektoru olmasaydı, yaxud da ki, bu sektoru inkişaf etdirməsəydik, biz nəyin hesabına inkişaf edəcəkdik?"



Azərbaycanın neft sərvətləri hələ çoxdur. Dənizdə və quruda istismar olunan yataqların ehtiyatları min tonlarla ölçülür. Hətta yeni yataqlarda kəşfiyyat işləri aparılır, onların işlənməsi üçün yeni müqavilələr imzalanır. Ölkəmizin qaz ehtiyatları 2,6 trilyon kubmetrə bərabərdir. Bu o deməkdir ki, neft-qaz sektoru bundan sonra da inkişafda olacaq. Bununla belə, Azərbaycan dövləti uzaqgörən, məqsədyönlü siyasət həyata keçirərək iqtisadiyyatı şaxələndirməyi prioritet kimi qarşıya qoyub.

Hazırda qeyri-neft sektorunda mühüm işlər görülür. Bu sektorun güclü qolu olan kənd təsərrüfatında ildən-ilə daha böyük nailiyyətlər əldə olunur. Əslində, aqrar sektorun özü də şaxələnir. Pambıqçılıq, üzümçülük, tütünçülük, baramaçılıq və digər geriləmiş, az qala unudulmuş sahələr yenidən dirçəldilib. İndi aqrar sahəyə diqqətin artırılması nəticəsində bütün pambıqçılıq rayonlarında həyat canlanıb. Yüzlərlə insan işlə təmin olunub. Bu, digər kənd təsərrüfatı sahələrinə də aiddir. Üzümçülüyün, tütünçülüyün, baramaçılığın keçmiş şöhrətinin qaytarılması emal sənayesinin genişləndirilməsini də gündəmə gətirib.

Azərbaycan başdan-başa bar verən bağlara çevrilir. Bölgələrdə yeni xurma, fındıq, badam, zeytun bağları salınıb, çoxsaylı tut ağacları əkilib. Cənub zonasında sitrus bağları cana gəlib, çəltikçilik, çayçılıq yeni inkişaf mərhələsinə qədəm qoyub. Zaqatalada qızılgül plantasiyaları yenidən çiçək açıb. Bu siyahını artırmaq da mümkündür. Bunların hamısı qeyri-neft sektorunun inkişafına, iqtisadiyyatın diversifikasiyasına, nəticə etibarilə Azərbaycanın möhkəmlənməsinə, iqtisadi siyasətimizin müstəqilliyinə xidmət edir.

Regionların inkişafına yönəldilən dövlət proqramları çərçivəsində həyata keçirilən tədbirlər ölkədə iqtisadiyyatın tarazlı şəkildə inkişafına imkan verib. Bölgələrdə genişmiqyaslı və çoxşaxəli infrastruktur layihələri gerçəkləşib. İndi Azərbaycanın işıq, qaz, su sarıdan problemi yoxdur. Ölkəmiz həm əhalini və iqtisadi sahələri işıqla tam təmin edir, həm də xaricə elektrik enerjisi ixrac edir. Qazlaşdırma 96 faizi ötür. Qaz xətləri sovet dönəminin ən inkişaflı illərində belə mavi yanacaq üzü görməyən ucqar dağ kəndlərinə çatıb. Kəndli suvarma suyundan da korluq çəkmir. Görülən bu və digər tədbirlər birbaşa, yaxud dolayısı ilə iqtisadiyyatın şaxələndirilməsinə, iqtisadi müstəqilliyə təkan verir.

Son illərdə Bakı daha da genişlənərək və gözəlləşərək meqapolisə çevrilib. Dünyanın müxtəlif ölkələrindən gələn turistlər Azərbaycan paytaxtına valeh olurlar. Turist axını getdikcə daha çox bölgəni əhatə edir. Təqdirəlayiq haldır ki, qeyri-neft sektorunun turizm sahəsinin özü də şaxələnir. Ölkəmizdə turizmin müxtəlif növləri, o cümlədən qış turizmi də inkişaf edir.

Prezident İlham Əliyev iqtisadi müstəqilliyi Azərbaycanın siyasi müstəqilliyini, o cümlədən xarici siyasətdə apardığı prinsipial mövqeyin əsas baza prinsipi kimi dəyərləndirir. Bu baxımdan da iqtisadiyyatın hərtərəfli inkişafını, xüsusilə qeyri-neft sektorunun genişləndirilməsini əsas prioritet kimi elan edib: "Hələ Ulu Öndər Heydər Əliyev vaxtilə demişdir ki, iqtisadiyyatı güclü olan ölkə hər şeyə qadirdir. Bu, tam həqiqətdir və bu gün bizim siyasi müstəqilliyimizin təməlində iqtisadi müstəqillik dayanır. Mən bunu öz çıxışlarımda dəfələrlə demişəm. Əgər bizim iqtisadiyyatımız kənar dairələrdən asılı olsaydı, biz uğurlu siyasi kurs icra edə bilməzdik... Mən Prezident kimi ilk illərdən iqtisadi müstəqilliyə nail olmaq üçün çalışmışam, müvafiq göstərişlər vermişəm. Bu gün Azərbaycan iqtisadi baxımdan, o cümlədən siyasi baxımdan heç kimdən, heç bir ölkədən asılı deyil, prinsipial müstəqil siyasət aparır, o siyasət ki, Azərbaycan xalqının maraqlarını təmin edir. Azərbaycan xalqının maraqlarını, dövlət maraqlarını bütün beynəlxalq tribunalardan müdafiə etmək üçün, əlbəttə ki, bizim iqtisadi imkanımız olmalıdır".

Ölkəmizin gündən-günə çoxalan nailiyyətləri məhz müstəqil iqtisadi siyasətimizlə birbaşa bağlıdır. Bunu bütün dünya görür və etiraf edir. Beynəlxalq reytinq qurumlarının, o cümlədən Davos Ümumdünya İqtisadi Forumunun hesabatlarında Azərbaycanın inkişafına verilən dəyər deyilənlərə sübutdur.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## Vergi uçotunun dürüstləşdirilməsində əsas məqsəd şəffaflığın təmin edilməsidir

**Kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olanlar vergi uçotuna durmadıqları halda onlara qarşı nə kimi tədbirlər görülür?**

Vergilər Nazirliyindən AZƏRTAC-a bildirilib ki, hazırda kənd təsərrüfatı məhsullarının istehsalçıları torpaq vergisi istisna olmaqla, digər vergiləri ödəməkdən azaddırlar. Aylıq əməkhaqları 8000 manatdan az olan işçilər isə gəlir vergisinə cəlb olunmurlar. Mövcud qanunvericiliyə əsasən, kənd təsərrüfatı məhsullarının istehsalçıları vergi uçotuna durmalı və vergi orqanına hesabat verməlidirlər. Belə olan halda onlar dövlətdən subsidiya ala, sərfəli şərtlərlə kredit və müxtəlif yardımlardan faydalana bilərlər.

Bundan əlavə, uçotda olanlar sosial sığorta haqlarını ödəməklə gələcəkdə fərdi pensiya ilə təmin ediləcəklər. Vergi uçotuna durmayan, hesabat və bəyannamələri vaxtında təqdim etməyən vergi ödəyicilərinə qarşı isə qanunvericilikdə nəzərdə tutulmuş maliyyə sanksiyaları tətbiq olunur.

Ümumilikdə, uçotun dürüstləşdirilməsində əsas məqsəd real vəziyyəti dolğun və dürüst əks etdirən uçot sisteminin qurulması və şəffaflığın təmin edilməsidir.

## Təsərrüfat subyektlərinin xarakteristikası nədən xəbər verir

**Dövlət Statistika Komitəsinin (DSK) cari il yanvar-sentyabr ayları üzrə açıqladığı hesabatda bildirilir ki, bu dövr ərzində ölkə üzrə statistik vahidlərin (fərdi sahibkarlar istisna olmaqla) sayı 8,9 faiz artaraq 141949 olmuşdur.**

Artım iqtisadiyyatın "Turistlərin yerləşdirilməsi və ictimai iaşə", "İnzibati və yardımçı xidmətlərin göstərilməsi", "Ticarət; nəqliyyat vasitələrinin təmiri", "Nəqliyyat və anbar təsərrüfatı", "Daşınmaz əmlakla əlaqədar əməliyyatlar", "Peşə, elmi və texniki fəaliyyət", "Emal sənayesi", "İnformasiya və rabitə" sahələrində daha çox qeydə alınmışdır. "Ticarət; nəqliyyat vasitələrinin təmiri", "Digər sahələrdə xidmətlərin göstərilməsi", "Tikinti", "Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq", "Peşə, elmi və texniki fəaliyyət" sahələrindəki statistik vahidlərin xüsusi çəkisi isə daha yüksək olmuşdur.

Xüsusi mülkiyyətə aid olan statistik vahidlərə gəldikdə, burada əsas hissə "Ticarət; nəqliyyat vasitələrinin təmiri" (29,7 faiz), "Digər sahələrdə xidmətlərin göstərilməsi" (20,3 faiz), "Tikinti" (10 faiz), "Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq" (8,1 faiz), "Peşə, elmi və texniki fəaliyyət" (6,8 faiz), "Emal sənayesi" (5,7 faiz) sahələrinin payına düşmüşdür.

DSK-nın məlumatında həmçinin bildirilir ki, reyestrdə qeydiyyatdan keçmiş statistik vahidlərdən tam xarici investisiyalı və birgə müəssisələr Türkiyə (26 faiz), İran (10,3 faiz), Rusiya (5,8 faiz), Böyük Britaniya (5,7 faiz), ABŞ (2,2 faiz) və Almaniyanın sahibkarları tərəfindən yaradılmışdır. O da qeyd edilir ki, hesabat dövründə statistik vahidlərin 99 faizi xüsusi mülkiyyətli (o cümlədən 14,3 faizi tam xarici investisiyalı və 2,1 faizi birgə mülkiyyətli), 0,1 faizi bələdiyyə mülkiyyətli, 0,9 faizi isə dövlət mülkiyyətli müəssisələr olmuşdur.

Yerləşdikləri ərazilərə gəldikdə, onların 84 faizi Bakıda, 4,4 faizi Abşeron, 3,9 faizi Aran, 2,3 faizi Gəncə-Qazax, 1,4 faizi Quba-Xaçmaz, 1,3 faizi Lənkəran, qalanları isə digər iqtisadi rayonlarda qeydiyyata alınmışdır.

# Yorğa atların ilk ölkə çempionatı keçiriləcək

Ölkəmizdə qədim atçılıq ənənəsini davam etdirmək, bu idman növünün əhatə dairəsinin daha da genişləndirmək üçün Azərbaycan Respublikası Atçılıq Federasiyasının təşəbbüsü və təşkilatçılığı ilə ilk dəfə yorğa atların Azərbaycan çempionatı keçiriləcək.



Yarışlarda Azərbaycanın müxtəlif regionlarında doğulan yerli yorğa atlar iştirak edəcək.

Çempionatın ilk yarışı 5 müxtəlif kateqoriyada və məsafəyə təşkil olunacaq.

Cıdır mövsümünün bağlanış gününə təsadüf edən çempionata atçılıq həvəskarlarının marağı çoxdur. Odur ki, yarışları çox sayda tamaşaçının izləməyə gəlməsi gözlənilir. Qaliblərə diplom, kubok və mükafatlar veriləcək.

Çempionat noyabrın 3-də start götürəcək.

*"Azərbaycan"*

# Oğuzda aztəminatlı ailələr üçün meyvə bağları salınıb

IDEA İctimai Birliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi və BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) birgə təşəbbüsü ilə noyabrın 1-də Oğuz rayonunda aztəminatlı ailələr üçün meyvə bağları salınıb.

AZƏRTAC xəbər verir ki, aksiya zamanı rayon ərazisində ayrılmış 2 hektar sahədə 312 ədəd qoz ağacı əkilib.

Yeni salınan bağ rayonda yaşayan 3 aztəminatlı ailə arasında bərabər bölünərək, təmənnasız olaraq onların istifadəsinə verilib. Ailələr qoz bağına qulluq göstərərək məhsul götürməklə gəlir əldə etmək və maddi rifahlarını yaxşılaşdırmaq imkanı qazanıblar.

Mərasimdə bildirilib ki, meyvə ağaclarının əkilməsi üzrə pilot layihəyə Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) xoşməramlı səfiri Leyla Əliyevanın təşəbbüsü ilə 2017-ci ilin aprelində başlanılıb. Layihə çərçivəsində ilk meyvə bağı İsmayıllı, daha sonra isə Şəmkir, Ağstafa, Tovuz, Ağdaş, Qax, Lənkəran, Beyləqan, Sabirabad, Ağcabədi, Bərdə, Lerik, Quba, Qəbələ, İmişli, Göygöl, Qazax, Balakən və Ağsu rayonlarında salınaraq aztəminatlı, o cümlədən Qarabağ müharibəsi veteranı və şəhid ailələrinin istifadəsinə verilib.

Layihənin sosial-iqtisadi əhəmiyyəti ondan ibarətdir ki, bu cür bağların salınması əhalinin rifahının yaxşılaşdırılması ilə yanaşı, ölkəmizin kənd təsərrüfatı məhsullarının idxalından asılılığının azaldılmasına da töhfə verəcək.

Layihə çərçivəsində fındıq, nar, ərik, feyxoa, xurma, qoz, alma növlərindən olmaqla, ümumilikdə, 21 min 120 meyvə ağacı əkilib və 66 aztəminatlı ailə meyvə bağları ilə təmin edilib.

Aztəminatlı ailələr üçün meyvə bağlarının salınması layihəsi çərçivəsində ağacəkmə aksiyaları gələcəkdə ölkənin digər rayonlarında da təşkil olunacaq.

Oğuz rayonunda meyvə bağlarının salınması üzrə təşkil edilən aksiyaya 200 nəfərdən çox yerli gənc könüllü olaraq qoşulub. IDEA İctimai Birliyinin təmsilçiləri aksiyada iştirak etmiş bütün könüllülərə və tədbirin keçirilməsinə dəstək verən qurumlara təşəkkürünü bildiriblər.

Azercell abunəçilərinin nəzərinə

03 dekabr 2019-cu il tarixdən etibarən "Zənglərin filtri" və "Zənglərin filtri +" xidmətləri ləğv ediləcək.

*Təkrar*

## "Azərlotereya" Açıq Səhmdar Cəmiyyəti lotereya biletlərinin çap edilməsi ilə əlaqədar *açıq tender elan edir*

Tender 1(bir) LOT üzrə keçirilir:

LOT-1. Lotereya biletlərinin çap edilməsi.

Tender iştirakçılarına təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, yuxarıda göstərilən LOT üzrə tender təkliflərini möhürlənmiş, imzalanmış, ikiqat bağlamada yazılı surətdə təqdim etsinlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, analoji işlərdə təcrübəsi, maliyyə vəziyyəti.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri,Təbriz küçəsi, 79 ("Azərlotereya" Açıq Səhmdar Cəmiyyəti) ünvanından (əlaqələndirici şəxs: Abbasov Rüfət Rasim oğlu, telefon: 514 47 01/02) ala bilərlər.

**İştirak haqqı - 300 (üç yüz) manat**

**"Azərlotereya"ASC Baki şəhəri, Təbriz küçəsi, 79**
**VÖEN: 1300053151**
**Hesab: AZ90PAHA38090AZNHC0190003900**
**Bank: "PAŞA Bank" ASC**
**Kodu: 505141**
**VÖEN: 1700767721**
**Müxbir Hesab: AZ82NABZ01350100000000071944**
**SWIFT Code: PAHAAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasının vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçıların son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) **22 noyabr 2019-cu il saat 18:00-a** qədər, tender təklifi və bank zəmanətini isə möhürlənmiş ikiqat zərfdə **29 noyabr 2019-cu il saat 18:00-a** qədər Bakı şəhəri,Təbriz küçəsi, 79 ("Azərlotereya" Açıq Səhmdar Cəmiyyəti ) ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **02 dekabr 2019-cu il saat 11:00-da** yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidməti tabeli qurumlarının bina və tikililərinin pasportlaşdırılmasının qiymətləndirilməsinin satın alınması ilə əlaqədar olaraq 26 oktyabr 2019-cu il tarixdə keçirdiyi kotirovka sorğusunun qalibi "Azspice" MMC olmuşdur. Qalib təşkilatla 01.11.2019-cu il tarixdə müvafiq müqavilə bağlanılmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası tərəfindən akademiyanın "Mühafizə xidmətləri" xərclərinin satın alınması üzrə "Azərbaycan" qəzetinin 01.11.2019-cu il tarixli, 243 №li sayında dərc olunmuş tender elanında qeyd edilən tarixlər "Tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 22.11.2019-cu il saat 11:00-a qədər, tender təklifi və bank təminatını isə 02.12.2019-cu il saat 15:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri 03.12.2019-cu il saat 11:00-da açılacaqdır." kimi oxunmalıdır.

***Tender komissiyası***

# Beynəlxalq aləm

## Konqres Trampın impiçmenti haqqında qətnamə qəbul etdi



ABŞ Konqresinin Nümayəndələr Palatası Prezident Donald Trampın impiçmenti prosesinin açıq mərhələyə keçidini nəzərdə tutan qətnamə qəbul etmişdir. Sənədin lehinə 232 konqresmen, əleyhinə 196 qanunverici səs vermişdir. Bu barədə "Röyter" agentliyi xəbər verir.

Qətnaməyə əsasən, kəşfiyyat, maliyyə xidmətləri, xarici işlər, nəzarət və islahat, gəlirlər və xərclər, habelə hüquq komitələrinə Trampın hərəkətləri ilə bağlı bundan əvvəl başlamış təhqiqatı davam etdirmək tapşırılmışdır.

Xatırladaq ki, Nümayəndələr Palatasının spikeri Nensi Pelosi sentyabrda ABŞ Prezidentinin impiçmenti prosedurunun başlandığını elan etmişdir. Bu qərar Ağ ev başçısının iyul ayında ukraynalı həmkarı Vladimir Zelenskiyə telefon danışığı zamanı güman olunan təzyiqi ilə əlaqədar qəbul edilmişdir.

## ABŞ İrana qarşı sanksiyaları genişləndirdi



ABŞ İranla əlaqəli sanksiya siyahılarını genişləndirmişdir. Siyahılara İran tikinti sektorunun müəssisələri daxil edilmişdir. ABŞ hökuməti, həmçinin ölkəyə bəzi materialların təchizatını qadağan etmişdir. Bu barədə Dövlət Departamentinin bəyanatında məlumat verilmişdir.

Sənəddə qeyd olunur ki, sanksiyaların genişləndirilməsi İranın nüvə silahı əldə etməsi riskini azaltmağa kömək edəcək və ölkədəki obyektlərin nüvə proqramına istiqamətləndirilməsinə imkan verməyəcək. İnşaat sektoru İslam İnqilab Qvardiyasının nəzarətində olduğundan sanksiyalara məruz qalmışdır. Bundan əlavə, İrana emal olunmamış, yaxud yarıemal edilmiş metalların, qrafitin, kömürün və bu sektor üçün proqram təminatının göndərilməsi qadağan edilmişdir. Siyahıya, həmçinin nüvə, yaxud raket proqramlarında istifadəsi güman olunan materiallar - polad borular, folqa və s. daxildir.

## Cənubi Koreya helikopteri dənizə düşdü



Cənubi Koreya helikopteri Yaponiya ilə mübahisəli Tokto adalarının yaxınlığında dənizə düşmüşdür. Helikopterdə olan yeddi nəfər itkin düşmüş hesab edilir. Bu barədə "Yonhap" agentliyi xəbər verir.

Agentliyin xəbərinə görə, helikopter gecə saatlarında Toktodan havaya qalxmış və bundan sonra dənizə düşmüşdür. Onun içərisində 2 balıqçı və 5 xilasedici olmuşdur. Onların axtarışı üçün hərbi gəmilər, helikopterlər, bir neçə balıqçı gəmisi və dalğıclar cəlb edilmişdir.

Dənizə düşmüş helikopter Fransanın "Airbus Helicopters" şirkətində hazırlanmışdır. 28 sərnişin daşıya bilən uçuş aparatı saatda 250 kilometr sürətlə beş saat uçmağa qadirdir.

## Aralıq dənizində 200 miqrant xilas olundu



Liviyanın sahil mühafizəsi Aralıq dənizində, ölkənin qərb sahilinin yaxınlığında 200 qeyri-leqal miqrantı xilas etmişdir. Miqrantların arasında 7 qadın və 3 uşaq olmuşdur. Bu barədə "Sinxua" agentliyi xəbər verir. Liviya hərbi dəniz donanmasının nümayəndəsinin dediyinə görə, miqrantlar iki taxta qayıqda üzürdülər. Qaçqınların arasında afrikalılar, ərəblər və Asiya ölkələrinin vətəndaşları vardı. Onlar Trablisdəki miqrantların qəbulu mərkəzinə aparılmışlar.

# Ölkə ərazisində yağıntılı hava şəraiti davam edəcək

Ölkə ərazisində bu günə gözlənilən hava proqnozu açıqlanıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında arabir yağış yağacağı, bəzi yerlərdə intensiv olacağı ehtimalı var. Gün ərzində güclü şimal-qərb küləyi əsəcək. Havanın temperaturu Abşeron yarımadasında gecə 10-12°, gündüz 13-15° isti, Bakıda gecə 10-12°, gündüz 13-15° isti olacaq. Atmosfer təzyiqi 759 millimetr civə sütunundan 766 millimetr civə sütununa yüksələcək, nisbi rütubət 80-90 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında arabir yağış yağacağı, bəzi yerlərdə intensiv olacağı, dağlıq rayonlarda qar yağacağı ehtimalı var. Ayrı-ayrı yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclü olacaq. Havanın temperaturunun gecə 7-12°, gündüz 15-18° isti, dağlarda gecə 2-6°, gündüz 6-9° isti olacağı ehtimal edilir.

Sinoptiklərin tibbi-meteoroloji proqnozuna görə, noyabrın 3-ü səhərədək Abşeron yarımadasında yağışlı, küləkli hava şəraiti gözlənilir ki, bu da meteohəssas insanlar üçün əsasən əlverişsizdir.

Naxçıvan Muxtar Respublikasında arabir yağış yağacağı gözlənilir. Bəzi yerlərdə intensiv olacağı, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 3-8°, gündüz 12-17° isti olacağı proqnozlaşdırılır.

Yuxarı Qarabağ: Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Qubadlı, Zəngilan, Laçın, Kəlbəcər, Daşkəsən, Gədəbəy rayonlarında arabir yağış yağacağı gözlənilir. Bəzi yerlərdə intensiv olacağı, qar yağacağı ehtimalı var. Ayrı-ayrı yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, gündüz ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 2-6°, gündüz 6-9° isti olacağı bildirilir.

Gəncə şəhərində, Qazax, Goranboy, Tərtər, Ağdam, Füzuli, Cəbrayıl rayonlarında arabir yağış yağacağı gözlənilir. Bəzi yerlərdə intensiv olacağı ehtimalı var. Səhər bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, gündüz ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 7-12°, gündüz 13-16° isti olacağı ehtimal edilir.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında arabir yağış yağacağı, bəzi yerlərdə intensiv olacağı, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Ayrı-ayrı yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, gündüz ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 3-7°, gündüz 12-16° isti, dağlarda gecə 2° şaxtadan 3°-dək isti, gündüz 4-7° isti olacağı gözlənilir.

Mərkəzi Aran: Mingəçevir və Şirvan şəhərlərində Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Hacıqabul, Salyan, Neftçala rayonlarında arabir yağış yağacağı, bəzi yerlərdə intensiv olacağı ehtimal edilir. Gecə və səhər ayrı-ayrı yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, gündüz ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 7-12°, gündüz 15-18° isti olacağı ehtimalı var.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında arabir yağış yağacağı gözlənilir. Bəzi yerlərdə intensiv olacağı, dağlıq ərazilərdə sulu qar yağacağı ehtimalı var. Səhər dağlarda duman olacaq. Şimal-şərq küləyi əsəcək, gündüz ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 10-13°, gündüz 15-17° isti, dağlarda gecə 5-7, gündüz 8-11° isti olacaq.

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin kollektivi iş yoldaşları Abdulla Abdullayevə atası

**KAMİL ABDULLAYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Sabirabad Rayon Məhkəməsinin sədri Füzuli Pənahov Azərbaycan Respublikası Baş Prokurorluğunun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin rəisi İlqar Cəfərova anası

**SUSANNA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Ali Məhkəməsinin kollektivi Şamaxı Rayon Məhkəməsinin sədri Etibar Hümbətova atası

**ZÜLFÜQAR HÜMBƏTOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Sumqayıt Apelyasiya Məhkəməsinin rəhbərliyi və kollektivi Şamaxı Rayon Məhkəməsinin sədri Etibar Hümbətova atası

**ZÜLFÜQAR HÜMBƏTOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Şamaxı Rayon Məhkəməsinin kollektivi məhkəmənin sədri Etibar Hümbətova atası

**ZÜLFÜQAR HÜMBƏTOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 8890
Sifariş 3619
Qiyməti 40 qəpik